www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 31 may 2023-cü il Çərşənbə № 93 (8229) Qiyməti 60 qəpik

**Xəbər**

## Hökumət taksi xidmətindəki xaosu önləyə bilmir

yazısı səh.10-da

**Gündəm**

### Kişinyovda dördtərəfli görüş - nə sülh, nə müharibə...



Paşinyan Makronun dəstəyinə arxayın olaraq, sülhdən uzaq tələblər səsləndirmək niyyətindədir

yazısı səh.6-da

### Prezident Əliyevin Laçın postu ilə bağlı o sözü və son nöqtəsi

yazısı səh.7-də

### Bakının qəti şərtlərini Xankəndidə eşitdilər - Araiki təslim etməsələr...

yazısı səh.5-də

### Büdcə təşkilatlarında işləmək müddəti 70 yaşa qaldırıla bilər

yazısı səh.11-də

### Ərdoğanın 17-ci qələbəsi və məğlubedilməzliyinin sirri

yazısı səh.12-də

### Bütün dövlət kinostudiyalarında istehsalat dayandırılıb

yazısı səh.13-də

### Ətin bahalaşmasının daha bir səbəbi üzə çıxdı

yazısı səh.14-də

### Marketlərdə saxta düyü iddiası

yazısı səh.15-də

### Polkovnik-leytenant niyə intihar edib?

yazısı səh.2-də

### İtkin düşmüş hərbçilər iki il sonra ölmüş elan ediləcək

yazısı səh.7-də

# RUSİYA ZƏNGƏZURDA TƏCİLİ KONSULLUQ AÇIR, ORDU DA YERLƏŞDİRƏ BİLƏR...

Paşinyan Putini Azərbaycanın "Ermənistana ərazi iddiası var" yalanına inandırıb, yoxsa Kreml Zəngəzura yerləşmək üçün fürsət əldə edib?




yazısı səh.4-də

## Seçici siyahısı ilə bağlı böyük müəmma - 1 milyon adam "yoxa çıxıb"?

Bu qədər fərq həm MSK-nın, həm Dövlət Statistika Komitəsinin apardığı qeyri-peşəkar siyahıyaalmanın nəticəsi ola bilər

yazısı səh.3-də



### Deputatdan referendum və seçkilər anonsu

yazısı səh.3-də



### Azərbaycan müxalifətinin Kılıçdaroğluna dəstəyinin səbəbi

yazısı səh.8-də



### İsxak Hersoq Bakıda: 11-ci prezidentin ilk səfəri, İran amili

yazısı səh.9-da




## Ərdoğan nə vaxt and içəcək?

**Türkiyə prezidenti seçilən Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasimi iyunun 2-si və ya 6-da keçirilə bilər. Bu barədə "CNN Turk" məlumat yayıb. Ali Seçki Komissiyası parlament seçkilərinin yekun nəticələrini mayın 30-da açıqlayacaq.**

İyunun 2-də deputatlar Türkiyə Böyük Millət Məclisində and içəcək və 5 gün ərzində parlament sədrliyinə namizədlər irəli sürüləcək.

Ərdoğan ya iyunun 2-də, ya da iyunun 6-da Türkiyə Böyük Millət Məclisində and içib, vəzifəsinin icrasına başlayacaq. O, and içdikdən sonra yeni hökumətin tərkibini elan edəcək, daha sonra Nazirlər Kabinetinin iclasını keçirəcək.

## Şuşalıların hökumətdən istəkləri

**Qarabağ müharibəsinin iştirakçısı olmuş bir qrup Şuşa sakini prezident İlham Əliyevə (həmçinin Milli Məclisin sədri Sahibə Qafarovaya və baş nazir Əli Əsədova) müraciət edib. Novator.az xəbər verir ki, müraciətdə qeyd olunur ki, vətən torpaqlarında, o cümlədən Şuşada möhtəşəm quruculuq işləri olduqca təqdirəlayiqdir.**

Müraciətdə təkliflər də yer alır: "Bizi ən çox qayğılandıran şəhidlər məzarlığının abadlaşdırılması məsələsidir. Şuşanın müdafiəsi uğrunda canını fəda etmiş şəhidlərimizin uyuduğu, Cıdır düzü ərazisində yerləşən məzarlığın abadlaşdırılması və orada xiyaban salınmasını, xiyabanın girişində Şuşanın müdafiəsi və işğaldan azad olunması uğrunda şəhid olmuş qəhrəman vətən övladlarının xatirə guşəsinin yaradılmasını arzu edirik və yerli sakinlərin bu arzularını gerçəkləşdirmələri üçün yardımçı olmalarına icazə verilməsini xahiş edirik.

İkinci vacib məsələ digər məzarlıqların - Mirzə Həsən və Cıdır düzü məzarlıqlarının abadlaşdırılması və sakinlərimizə həmin məzarlıqları ziyarət etmələrinə şərait yaradılması məsələsidir. Həmin məzarlıqları erməni barbarlar tamamilə dağıdıb və oraları ağaclar, kollar basıb. İnsanlarımıza bu məzarlıqları ziyarət etməyə və abadlaşdırma işləri aparmağa icazə verilmir. Belə bir icazənin verilməsinə təminat yaradılmasını xahiş edirik".

## Təbrizli tələbələr dərsləri dayandırdı

**Təbriz Universitetinin Azərbaycan dili və ədəbiyyatı bölməsinin tələbələri dərsləri dayandırıblar. Bu barədə "Təbriz Turan TV" Telegram kanalı məlumat verib. Tələbələr dərslərin dayandırılması ilə bağlı sosial şəbəkələrdə paylaşım ediblər.**

Onlar bildiriblər ki, universitet rəhbərliyi, fars dili və ədəbiyyatı bölməsinin məsul şəxsləri bir çox məsələlərə, o cümlədən Azərbaycan dili və ədəbiyyatı bölməsinə mütəxəssis kadrların cəlb olunmasına müdaxilələr edir.

## Bu il Qarabağa qayıdacaq ailələrin sayı açıqlandı

"Bu il ərzində ümumilikdə 1800 ailənin öz doğma torpağına qayıdışı və daimi məskunlaşması nəzərdə tutulub". Bunu Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov deyib.

Onun sözlərinə görə, Laçına şəhərinə 700, rayonun Zabux və Sus kəndlərinə 400-ə yaxın, Şuşa şəhərinə 450, növbəti mərhələdə isə Tərtərin Talış kəndinə 113 və Füzuli şəhərinə 267 ailənin bu il ərzində qayıdışı nəzərdə tutulub.

## DİN-dən Salyandakı həbslə bağlı açıqlama

**Azərbaycan Xalq Cəbhəsi Partiyası Salyan rayon təşkilatının fəali Zaur Əhmədov inzibati qaydada 30 sutka həbs edilib. DİN-in Mətbuat Xidmətinin Şirvan regional qrupunun baş inspektoru Nizam Həmidov "Turan"a bildirib ki, Salyan rayon sakini Z.Əhmədov mayın 26-da rayon ərazisində ictimai qaydanı pozduğuna və polis əməkdaşlarının qanuni tələblərinə tabe olmadığına görə şöbə əməkdaşları tərəfindən saxlanılıb. "Onun barəsində qanunvericiliyə uyğun olaraq tədbirlər görülüb və toplanmış materiallar baxılması üçün rayon məhkəməsinə göndərilib. Məhkəmənin qərarı ilə Z.Əhmədov 30 sutka inzibati qaydada həbs olunub".**

DİN rəsmisi qeyd edib ki, Z.Əhmədovun ailəsi ilə əlaqə qurmasına və ona sovqat verilməsinə məhdudiyyət qoyulması ilə bağlı iddialar əsassızdır.

Azərbaycan Xalq Cəbhəsi Partiyasının mətbuat xidmətindən bildiriblər ki, Əhmədovun həbsi onun siyasi fəaliyyəti ilə bağlıdır.

# Emin Ağalarov atasının "Crocus Group" şirkətindən ayrıldı



**Azərbaycanlı müğənni və biznesmen, xalq artisti Emin Ağalarov atasına məxsus "Crocus Group" şirkətindən ayrılıb. Bu barədə o özü məlumat verib.**

"Crocus Group"un birinci vitse-prezidenti vəzifəsindən ayrılan Emin Ağalarov bundan sonra diqqətini özünün layihələri üzərində cəmləşdirmək niyyətində olduğunu bildirib.

"Biz atamla ("Crocus Group"un sahibi Araz Ağalarov - red.) danışdıq və birgə qərar verdik ki, mənim vəzifələrim şirkətin aparıcı top-menecerləri arasında bölüşdürüləcək", - o qeyd edib.

Emin Ağalarov şirkətdən getməsini şəxsi layihələrinin olması ilə izah edib. "Hazırda mən öz layihələrimlə - "Sea Breeze" kurort şəhərinin, fitness klublar şəbəkəsinin, eləcə də restoranlar şəbəkəsinin inkişafı ilə məşğulam ", - deyə xalq artisti əlavə edib.

Qeyd edək ki, Emin Ağalarov 2001-ci ildən "Crocus Group"da çalışıb, 2014-cü ildən şirkətin birinci vitse-prezidenti olub. Şirkət Moskva vilayətində "Crocus Expo" sərgi mərkəzinə, "Crocus City Hall" konsert zalına, "Vegas" ticarət və əyləncə mərkəzlərinə və "Tvoi Dom" hipermarketlərinə sahibdir.




## Polkovnik-leytenant niyə intihar edib?

**Abşeron rayonunda vəzifəli şəxs intihar edib. "Qafqazinfo" xəbər verir ki, Fövqəladə Hallar Nazirliyinin Sumqayıt Regional Dövlət Yanğın Nəzarəti İdarəsinin təhlükəsizliyi üzrə normativ iş şöbəsinin rəisi, polkovnik-leytenant Muxtar Cəbişov özünü asaraq həyatına son qoyub.**

Hadisə Ceyranbatan qəsəbəsi Şahbala Hüseynov küçəsində yerləşən nömrəsiz evin həyətində baş verib. İntihar mayın 28-də qeydə alınıb. Hadisənin baş verdiyi evin M.Cəbişovun atasına məxsus olduğu bildirilir. Onun hansı səbəbdən intihar etməsi hələlik məlum deyil.

Faktla bağlı Abşeron Rayon Prokurorluğunda araşdırma aparılır.



## "Şofer Əhməd" dəfn edildi

**Mayın 30-da əməkdar artist Elxan Qasımovla vida mərasimi keçirilib. Mərasimdə incəsənət xadimləri, mərhumun ailə üzvləri və yaxınları iştirak ediblər.**

Mərhumun yaşadığı evdə keçirilən mərasimdən sonra E.Qasımov Xırdalan qəbiristanlığında torpağa tapşırılıb.

Xatırladaq ki, Elxan Qasımov 1945-ci il aprelin 24-də Naxçıvanda anadan olub. O, "Əhməd haradadır" filmində "sürücü Əhməd" obrazı ilə tanınıb. 1969-cu ildən "Azərbaycanfilm" kinostudiyasında işləyən incəsənət xadimi bədii, sənədli filmlərin, "Mozalan" süjetlərinin müəllifidir.

## İyunda 12 gün iş olmayacaq

**İyunda qeyri-iş günlərinin sayı məlum olub. Qeyri-iş günlərinin sayı Əmək Məcəlləsinə və Nazirlər Kabinetinin qərarına əsasən müəyyənləşib. İyunun 15-də Milli Qurtuluş Günüdür.**

26 iyun Silahlı Qüvvələri Günü, iyunun 28, 29-u isə Qurban bayramı günləridir.

İş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2023-cü ilin 27 və 30 iyun iş günləri ilə müvafiq olaraq 24 və 25 iyun istirahət günlərinin yerləri dəyişdirilib.

Beləliklə, həftəsonları da daxil olmaqla, iyunda 12 gün iş olmayacaq.



## Fazil Mustafa iki aydan sonra Milli Məclisdə

**Martın 28-də terror hücumuna məruz qalmış Böyük Quruluş Partiyasının sədri, Milli Məclisin deputatı Fazil Mustafa iki aylıq fasilədən sonra parlamentin mayın 30-da keçirilən plenar iclasında iştirak edib.**

Qeyd edək ki, martın 28-də F.Mustafaya qarşı yaşadığı evin qarşısında "Kalaşnikov" avtomat silahından atəş açılaraq terror aktı törədilib. Nəticədə o, bədənin sağ çiyin qurşağını və sağ budun aşağı üçdə birini dəlib keçən güllə yarası alıb. Əvvəlcə terror aktının sifarişçisi, sonra isə icraçılar müəyyən edilib. DİN və DTX-nın şəxsi heyətinin birgə səyləri, polis əməkdaşlarının peşəkarlığı və fədakarlığı sayəsində aprelin 2-dən 3-nə keçən gecə cinayətkar dəstənin üzvləri həbs ediliblər. Hadisədə əli olan bir neçə nəfər tutulub.

## Beş ayda ən çox qoyulan ad Zəhra oldu

**Novator.az Ədliyyə Nazirliyinin saytında populyar adların rəsmi siyahısına nəzər salıb.**

2023-cü ilin yanvar-may aylarında Azərbaycanda doğulmuş qız uşaqlarına ən çox Zəhra adı qoyulub: 621 nəfər.

Məryəm adı 543, Aylin adı 480 qıza məsləhət görülüb.

İlk onluqda Zeynəb (451 uşaq), Nilay (423), Fatimə (420), Mələk (400), Ayla (390), İnci (321), Nuray (297) adları da var.

Oğlan adları içində Uğur birincidir: bu adı beş ayda 692 uşaq alıb.

671 oğlana Əli, 570 oğlana Yusif adı verilib.

Qalan populyar oğlan adları belə sıralanır: Hüseyn (529 uşaq), Məhəmməd (420), Ömər (383), Raul (379), Murad (338), Adəm (303), Ayxan (267).

YENİ MÜSAVAT
N 93 (8229) 31 may 2023

**Mərkəzi Seçki Komissiyası təqribən beş ay ərzində ardıcıl və sistemli şəkildə həyata keçirilən prosesdən sonra 2023-cü il üzrə daimi seçici siyahılarının hazırlanmasına yekun vurub. Siyahıların tərtib edilib dəqiqləşdirilməsinə aşağı seçki komissiyalarının otuz səkkiz mindən artıq üzvü cəlb olunub və bütün proses boyunca Daxili İşlər Nazirliyi və Ədliyyə Nazirliyinin müvafiq orqanları, yerli icra strukturları və bələdiyyə qurumları ilə sıx əməkdaşlıq edilib.**

# Seçici siyahısı ilə bağlı böyük müəmma - 1 milyon adam "yoxa çıxıb"?

## Bu qədər fərq həm MSK-nın, həm Dövlət Statistika Komitəsinin apardığı qeyri-peşəkar siyahıyaalmanın nəticəsi ola bilər



2023-cü il mayın 26-da MSK üzvləri media təmsilçilərinin də iştirakı ilə komissiyanın inzibati binasında vahid seçicilər siyahısının yenidən tərtib edilmiş variantına baxış keçirib və siyahıların saxlanma şəraiti ilə tanışlıq olub. Seçici siyahılarının çapı və saxlanması şəraiti ilə tanışlıqdan sonra Məzahir Pənahovun sədrliyi ilə MSK-nın iclası keçirilib. İclasda 2023-cü ilin daimi seçici siyahılarının yenidən tərtib edilməsi, təsdiqi və ictimailəşdirilməsi məsələsinə baxılıb.

Komissiyanın iclasında 2023-cü ilin daimi seçici siyahılarının tərtib edilməsi və dəqiqləşdirilməsi işi başa çatmış hesab edilərək, siyahıların məntəqə və dairə seçki komissiyaları tərəfindən təsdiq olunması üçün aidiyyəti üzrə dairə seçki komissiyalarına göndərilməsinə, Seçki Məcəlləsinin tələbləri nəzərə alınmaqla təsdiqləndikdən sonra komissiyanın internet saytında yerləşdirilməklə ictimailəşdirilməsinə qərar verilib.

Məlumat üçün qeyd edək ki, dəqiqləşdirmə prosesinin sonunda ölkə üzrə vahid seçicilər siyahısına 6334178 seçici daxil edilib ki, onların da 47,44 faizi kişi, 52,56 faizi isə qadınlardır.

Demokrat.az xəbər verir ki, MSK-nın açıqladığı seçici sayı ilə Dövlət Statistika Komitəsinin (DSK) əhalinin sayı ilə bağlı açıqladığı məlumat arasında böyük fərq var. Bildiyimiz kimi, Azərbaycanda 18 yaşından yuxarı vətəndaşlar seçici sayılır. DSK-nın açıqladığı əhalinin yaş qrupları üzrə məlumatlarda 0-18 yaş aralığındakı insanların yox, 0-19 yaş aralığındakı insanların sayı göstərilir. Lakin buna baxmayaraq, 19 yaşdan yuxarı əhalinin sayı da seçicilərin sayından çoxdur. Qeyd edək ki, DSK 2023-cü il üçün əhalinin yaş qrupları ilə bağlı məlumatları açıqlamayıb, amma ehtimal etmək olar ki, aradakı fərqdə ciddi dəyişiklik olmayacaq. Açıqlanan məlumatlardan belə görünür ki, təxminən 1 milyon Azərbaycan vətəndaşı seçici kimi qeydiyyata alınmayıb. Hətta əvvəlki illərdə seçici kimi qeydə alınmayan vətəndaşların sayı təxminən 2 milyon olub. MSK-nın siyahısı ilə Statistika Komitəsinin siyahısındakı bu fərq nədəndir? MSK doğrudanmı təxminən 1 milyona yaxın seçicini siyahıya almayıb?

**Mərkəzi Seçki Komissiyasının əvəzedici üzvü Niyaməddin Orduxanlı** "Yeni Müsavat"a bildirdi ki, Mərkəzi Seçki Komissiyası ilk dəfə deyil ölkə üzrə vahid seçicilərin siyahısını tərtib edir. Qanunvericiliyə görə, Seçki Məcəlləsinin tələbinə uyğun olaraq hər il yanvar ayından başlayaraq, məntəqə seçki komissiyalarında, sonra dairə seçki komissiyalarında və sonda Mərkəzi Seçki Komissiyasında seçicilərin dəqiqləşdirilməsi prosesini həyata keçirir, bununla da ölkədə seçicilərin siyahısının tam dəqiqləşdirilməsi yekunlaşdırılır: "Yanvar ayından etibarən də 2023-cü il üçün eyni prosedur həyata keçirilib. MSK-nın 1 milyona yaxın seçicini siyahıya almaması barədə yayılan xəbər isə kökündən yalandır, böhtan xarakterli məlumatdır. Bu, qeyri-mümkün haldır. Hər il siyahıya alınmanın yekununda MSK ölkə üzrə 18 yaşından yuxarı seçicilərin dəqiq sayının nə qədər olması ilə bağlı məlumat verir və bu, dəqiq məlumatdır. Dövlət Statistika Komitəsinin yaydığı məlumatla tanış deyiləm. Ümumi əhalinin sayının seçicilərin sayından çox olması isə təbiidir. Çünki 18 yaşından yuxarı şəxslər seçici sayılır. 18 yaşından aşağı şəxslər əhali sayına daxildir, lakin seçki hüquqları olmadığı üçün seçici siyahısına alınmırlar. Siyahıda fərq bu səbəbdən ola bilər. Ola bilsin, bu fərqi kimlərsə yanlış başa düşüblər. Azərbaycanda qanunvericiliyə görə 18 yaşı tamam olmuş vətəndaşlar səsvermədə, seçkidə iştirak edə bilirlər".

Ekspertlər isə hesab edir ki, bu, köhnə problemdir və hər il olduğu kimi qalır. Mərkəzi Seçki Komissiyasına hər il seçici siyahılarının dəqiqləşdirilməsinə təxminən 6 milyon manat pul ayrılır. Dövlət Statistika Komitəsinə də əhali sayının dəqiqləşdirilməsi üçün də milyonlarla manat vəsait verilir. Amma təəssüf ki, hər iki qurumun açıqladığı rəqəmlərdə hər il uyğunsuzluq ortaya çıxır. Səbəblərdən biri kimi hər iki qurumun metodologiyasının bir az fərqli olması göstərilir. MSK məntəqə seçki komissiyaları və bəzən də dairə seçki komissiyaları səviyyəsində bəzən seçicilərin sayını az göstərməyə çalışır. Bu, daha çox seçkilərdə seçici fəallığını yüksək göstərməyə kömək edir. Lakin istənilən halda, bu hallar da 1 milyon fərqini yarada bilməz. Çünki 1 milyon adamın adı seçki siyahısında olmasaydı, seçki günü yüzlərlə, minlərlə insanın seçki məntəqələrində adlarının tapılmamasına gətirib çıxarardı.

Bu qədər fərq həm MSK-nın, həm Dövlət Statistika Komitəsinin apardığı qeyri-peşəkar siyahıyaalmanın nəticəsi də ola bilər. Dövlət Statistika Komitəsinin metodologiyası köhnəlib. Dövlət Statistika Komitəsi Azərbaycandan miqrasiya etmiş şəxsləri də siyahıda ölkədə yaşayan əhali kimi göstərir. Daxili miqrasiya ilə bağlı da problem var. Adam yaşadığı yerdən harasa köçəndə bəzən onun adı hər iki ünvanda siyahıya alınır. Prezidentin 12 sentyabr 2018-ci il fərmanı ilə təsdiqlənən "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi qaydaları"na görə, dövlət informasiya ehtiyatının və sisteminin səmərəli təşkili və istifadəsi, informasiyanın ilkin mənbədən əldə edilməsi və təkrarçılığın aradan qaldırılması üçün dövlət informasiya ehtiyatının və sisteminin inteqrasiyası aparılmalıdır. Mərkəzi Seçki Komissiyası və Dövlət Statistika Komitəsi fərdlərin fərdi məlumatlarını ilkin mənbədən əldə edib ona uyğun istifadə etməli idi.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Deputatdan referendum və seçkilər anonsu



## Zahid Oruc: "Azərbaycanda növbəti seçkilər müstəqillik tariximizdə ilk dəfə azad torpaqlarda keçiriləcək"

**"28 mayda Türkiyədə keçirilən seçkilər son 20 ildə siyasi və mənəvi coğrafiyasını genişləndirən bir dövlətin parlaq qələbəsi oldu. On illərdir hakimiyyət zirvəsində olan liderə verilən 27 milyondan artıq səs həm də xalqımızın mənəvi-siyasi iradəsinin ifadəsi idi". Deputat Zahid Oruc belə deyib.**

Deputat deyib ki, Ərdoğanın qələbəsi ilk növbədə, Azərbaycan-Türkiyə birliyinin təntənəsi, İslam və türk dünyasında, eləcə də Avrasiya qitəsində qurulan yeni təhlükəsizlik arxitekturasının davamlılığının zəmanəti oldu: "Əgər Ermənistanla sülh müqaviləsi hələ imzalanmayıbsa, Fransa və NATO dövlətləri Cənubi Qafqaza hərbi qüvvə yeritməyə çalışırsa, Əliyevlə Ərdoğanın zəfər kursu davam etməlidir. Türkiyə müxalifətinə özünü yaxın sayan, "orada hakimiyyət dəyişərsə, bizə də fürsət açılar" deyən radikal dini-siyasi qüvvələrə də böyük zərbə oldu".

**Z.Oruc deyib ki, qardaş ölkədəki seçkilərə cəmiyyətimizin yüksək diqqəti 2025-ci ildə Azərbaycanda keçiriləcək prezident və parlament seçkilərinə hazır olduğu kimi də dəyərləndirilə bilər:**

"Prezident İlham Əliyev 2018-ci il seçkilərinin ardınca Ulu Öndərin 100 illiyində yeni hakimiyyət quruculuğunu əzmlə davam etdirir. Mərkəzi və yerli idarəetmə orqanlarında inqilabi dəyişikliklər, yeni partiyalar sistemi, neftə alternativ - "yaşıl" enerji iqtisadiyyatı, yeni siyasi elitanın formalaşdırılması Vətən müharibəsində Qələbədən sonra daha da güclənib.

Türkiyədə 90 faizə yaxın seçicinin gələcək taleyini özü müəyyən etməsi ölkəmizdə də aktiv seçki mühitinə təkan verir və partiyalardan kənarda qalan, qeyri-siyasi topluma aid edilən və kənar təsirlərə həssas təbəqənin siyasi proseslərə fəal cəlbini tələb edir.

Xüsusilə də "Azərbaycan 100 ili" adlı yeni konsepsiyanın, o cümlədən İkinci Qarabağ müharibəsində qələbəmizin tək lideri İlham Əliyevin gələcək seçkilərdə haqlı legitim qələbəsinin "yol xəritəsi"nin hazırlanması bir nömrəli məsələdir. Konstitusion islahatların zərurəti, eləcə də Xankəndidə məskunlaşan ermənilərlə birgəyaşayış və inteqrasiya siyasi hüquq və azadlıqlara həssas yanaşmanı şərtləndirir. Siyasi partiyaların ideoloji kimliklərinin müəyyənləşməsi, dini və milliyyətçi yönlü, separatizmə qarşı birləşdirici ideologiyaların hazırlanması da son dərəcə vacibdir. Azərbaycanda növbəti seçkilər müstəqillik tariximizdə ilk dəfə ərazi bütövlüyümüzün təminatı və azad torpaqlarda keçiriləcəkdir. Ona görə də zəfərimizə geridönməz xarakter vermək, "Böyük qayıdış"ın bütün hədəflərinə çatmaq, möhkəm ailə və dini dəyərləri, eləcə də milli təhlükəsizliyi qorumaq üçün Türkiyədə seçkilərdəki Qələbəni 2025-ci ildə ölkəmizdə davam etdirməliyik".

**Rusiya Zəngəzurda konsulluq açacaq. "Yeni Müsavat" xatırladır ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin MDB ölkələri üzrə 4-cü departamentinin direktor müavini Sergey Paltov Moskvada erməni-rus ekspert dəyirmi masada çıxışı zamanı deyib.**

# Rusiya Zəngəzurda təcili konsulluq açır, ordu da yerləşdirə bilər...

## Paşinyan Putini Azərbaycanın "Ermənistana ərazi iddiası var" yalanına inandırıb, yoxsa Kreml Zəngəzura yerləşmək üçün fürsət əldə edib?




"Paşinyan və Putin arasında mayın 25-də Moskvada baş tutan ikitərəfli görüşdə Ermənistan tərəfi Rusiyanın Sünikdə (Zəngəzur - red.) konsulluğunun açılmasına razılıq verib", - Paltov bildirib. Rus diplomat onu da bildirib ki, konsulluğun açılması üçün ən azı bir il çəkəcək uzun prosedurlardan keçmək lazım gəlməyəcək, sadələşdirilmiş sxemdən keçməklə bu, reallaşdırılacaq. Paltov vurğulayıb ki, prosedurları icra etmək üçün bölgəyə müvafiq şəxslər göndərilməsi qərara alınıb.

**Platov deyib ki, iyunda Zəngəzura səfər edəcəklər:** "Məqsəd təkcə erməni-rus dostluğunun qorunub saxlanmasına deyil, həm də Ermənistanın bu strateji əhəmiyyətli regionunun təhlükəsizliyinə töhfə verməkdir. Ümid edirəm ki, iyundakı səfərimiz səmərəli olacaq".

Yada salaq ki, İran da ötən ilin oktyabrında Zəngəzur vilayətinin Qafan rayonunda konsulluq açıb. Açılış mərasimində İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan şəxsən iştirak edib. O, konsulluğun açılış mərasimində çıxışı zamanı Ermənistanla bağlı təriflər yağdırıb. İkitərəfli əməkdaşlıqdan söz açan nazir Ermənistanın təhlükəsizliyinin İran üçün vacib olduğunu söyləyib: "İran hökumətinin Qafanda konsulluğunun açılması ilə bağlı qərarı reallığa çevrildi. İran Ermənistanın təhlükəsizliyini özünün təhlükəsizliyi hesab edir".

Rusiyanın Zəngəzurda konsulluq açmaq qərarının Ermənistanın baş naziri Nikol Paşinyanla görüşdə razılaşdırılması diqqət çəkir. Çünki məhz bu görüşdən bir neçə saat əvvəl Paşinyan Avrasiya İqtisadi Birliyinin toplantısında Zəngəzur narahatlığını dilə gətirmişdi. Prezident İlham Əliyevin "Biz həmçinin ölkənin əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, həm də beynəlxalq dəmir yolu marşrutlarının bir hissəsi olacaq Zəngəzur dəhlizinin yaradılması təşəbbüsünü irəli sürmüşük" sözlərini Paşinyan ölkəsinə qarşı "ərazi iddiası" kimi qiymətləndirmişdi. Prezident Əliyev Paşinyanın diqqətinə bunları çatdırmışdı: ""Dəhliz" sözü heç də kiminsə ərazisinə göz dikmək demək deyil. Bu, beynəlxalq termindir və düşünürəm, beynəlxalq terminologiya ilə tanış olan insanlar yəqin ki, ona bu gün Ermənistanın baş naziri kimi məna verməzdilər. Dediyim Zəngəzur dəhlizinə gəlincə, əgər mənim çıxışıma diqqətlə qulaq asılsa, orada deyilir ki, "Azərbaycan Zəngəzur dəhlizinin yaradılması təşəbbüsünü irəli sürüb". Prezidentin "Zəngəzur dəhlizinin açılması Rusiya, Ermənistan və Azərbaycan arasında münasibətlərin nizamlanması prosesinə cəlb olunmuş digərləri tərəfindən də dəstəklənir" sözləri də Paşinyanı sakitləşdirməmişdi, "mən ilk dəfədir bunu eşidirəm" demişdi. Putin isə "terminologiya başqa sözlə hüquqi texnikadır, dəhliz, digərləri, digərləri - bu, vacibdir və burada müəyyən ziddiyyət var. Lakin daha vacib olanı indi Sizin - həm Azərbaycan Prezidentinin, həm Ermənistan baş nazirinin dediyi kimi prinsipial məsələ ərazi bütövlüyü məsələsidir", - deyə Paşinyanı sakitləşdirməyə çalışmışdı.

Amma belə görünür ki, Putinlə Paşinyanın görüşündə erməni baş nazir Zəngəzur qorxularını dilə gətirib. Bundan dərhal sonra Rusiyanın Zəngəzurda tezləşdirilmiş prosedurla konsulluq açması diqqət çəkir. Paltovun "Ermənistanın bu strateji əhəmiyyətli regionunun təhlükəsizliyinə töhfə verməkdir" sözləri daha çox diqqət çəkir. Maraqlıdır, Moskvanın bu tələskənlik və təhlükəsizlik hazırlığı nə deməkdir? Paşinyan Putini Azərbaycanın "Ermənistana ərazi iddiası var" yalanına inandırıb, yoxsa Rusiya bunu Zəngəzura oturmaq üçün fürsət bilir?

İrandan sonra Rusiyanın bu bölgədə konsulluq açması 1990-cı illərdə Qarabağda müşahidə olunan geosiyasi mübarizənin indi Zəngəzura keçdiyini göstərir. Bu baxımdan, rəqabətin artması nəticəsində Fransa, ABŞ və digər ölkələr də Zəngəzurda konsulluq açmaq qərarını elan edə bilər. Yəni Rusiya, ABŞ, Avropa İttifaqı, Fransa, İran, Türkiyə kimi güclər arasında Ermənistan və Zəngəzur uğrunda geosiyasi mübarizə artır. Konsulluq məsələsi prosesin hələlik diplomatik müstəvidə getdiyini göstərir. Növbəti mərhələdə isə bu qarşıdurma hərbi müstəviyə keçə bilər. Bu dəyərləndirmələr, təhlillər nə dərəcədə real görünməkdədir? Rusiya və İranın konsulluqlar açması Zəngəzur dəhlizinin işə düşməsinə əngəl ola bilərmi? Hərçənd bu nəqliyyat kommunikasiyalarının bərpası Moskvaya lazımdır...

**Politoloq Tofiq Abbasovun "Yeni Müsavat"a bildirdiyinə görə, konsulluq açılması Rusiyadan Ermənistana "kökə" verilməsidir. Onun fikrincə, ermənilər regionda və beynəlxalq aləmdə işlək tərəf kimi özlərini təsdiqləmədilər**: "Ermənilər yalnız ağlayır, sızlayır, çağırışlar edirlər ki, Azərbaycan belə elədi, elə elədi. Ona görə Rusiya Ermənistana "kökə" verir ki, biz sizi satmırıq. Bundan başqa nə ola bilər? Axı Ermənistanın Zəngəzurda hansı xüsusi qabiliyyəti var ki, orada konsulluqla nəsə etsin?! Kiçik bir ölkədir və konsulluq açılanda da vəzifələrinin nədən ibarət olduğu məlumdur. Digər tərəfdən, Rusiya vətəndaşlarının Zəngəzura hansı belə kütləvi səfərləri olur ki, orada konsulluğa ehtiyac olsun? Sadəcə, bu kiçik "kökə" ilə ermənilərə dedilər ki, sizinlə işləyəcəyik".

**T.Abbasov hesab edir ki, Ermənistan faktiki Rusiyanın region forpostudur:** "Rusiya müdafiə naziri Sergey Şoyqu da Ermənistanla bağlı bildirdi ki, missiya göndəriləcək. Yəni bölgədə Qərbin və ya üçüncü qüvvənin güclənməsinə imkan verməyəcəyik. Hətta Avrasiya İqtisadi Birliyin toplantısında Putin dedi ki, Ermənistanda 12 faiz artım var, biz onlara çata bilmirik. Bu, lətifə idi. Çünki o artım Rusiyadan Ermənistana gedənlərin hesabına idi. Bu təsadüfi canlanmadır və onunla da bitəcək. Çünki Ermənistanda 5 faizdən çox artım olmamışdı. Üstəlik, Ermənistan yeganə dövlətdir ki, xaricdən gələn ianələr var. Ona görə Zəngəzurda konsulluq açılması sıradan hadisədir. Konsulluğun açılması ilə ermənləri qorumaq imkanı yoxdur. Ümumiyyətlə, prinsipial məsələlər olanda liderlər hamının qarşısında danışmırlar. Üçtərəfli görüşdə Rusiya lideri xatırlatdı ki, Zəngəzur dəhlizi açılacaq. Ermənistan hakimiyyətinin oradakı səlahiyyətləri nəzərə alınmayacaq. Bu konsulluğun açılması ilə İrəvanı razı salırlar ki, "səninlə müttəfiqəm, səni tək qoymayacam"".

**Siyasi təhlilçi Yeganə Hacıyevanın sözlərinə görə, Zəngəzur layihəsi daha çox regional dəhliz kimi nəzərdə tutulsa da, qlobal daşımalarda vacib tranzit keçid hesab edilir:** "Bu keçidin mühüm hissəsi isə Azərbaycan ərazisinə düşür. Azərbaycan da öz növbəsində Zəngəzur dəhlizi ilə bağlı konstitusiyanın tələblərinə və beynəlxalq hüququn prinsiplərinə uyğun davranacağını bəyan edib. 2020-ci il 10 noyabr bəyanatı ilə müharibə bitib və Rusiya həm Zəngəzur, həm də Laçın dəhlizində təhlükəsizliyi təmin etməyə dair öhdəlik götürüb. Amma bu öhdəlik birtərəfli qaydada həyata keçirildi. Zəngəzur dəhlizi hələ açılmayıb və Ermənistan öz üzərinə götürdüyü öhdəliyə uyğun olaraq, yolun bir hissəsini qismən düzəldib, üstəlik, hələ açılmayan Zəngəzur dəhlizi üçün Qərbdən maliyyə alıb".

**Y.Hacıyeva deyir ki, sonrakı mərhələdə Zəngəzurda İran konsulluq açıb, indi isə Rusiya bu qərara gəlib:** "Rusiyanın yanlış davranışı nəticəsində, yəni üçtərəfli bəyanatın bəndlərini sədaqətlə yerinə yetirmədiyinə, öz imzasına sədaqətli olmadığına görə Moskvanın bu regionda mövqeyi Federal Təhlükəsizlik Xidmətinin sərhəd qoşunlarının mühafizəsi altında dəhliz açmaq statusundan konsulluq səviyyəsinə düşüb. Yəni Rusiya Zəngəzur dəhlizində təhlükəsizliyi təmin etmək statusunu itirir və bu yoldan başqaları kimi yalnız istifadəçi kimi yararlana biləcək. Zəngəzur dəhlizi ideyası Azərbaycana məxsusdur və sərhədlərimizin təhlükəsizliyi məqsədilə iqtisadi bufer zonanın yaradılması məqsədi daşıyır. Bu da Azərbaycan vətəndaşlarının Naxçıvana və əks istiqamətdə sərbəst hərəkətini təmin etmək məqsədi daşıyır. Rusiyanın konsulluq açmaq qərarı bu ölkənin Zəngəzur dəhlizi üzərində mövqelərini itirdiyindən xəbər verir".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 93 (8229) 31 may 2023

**Mayın 28-də Laçına köçən əhali ilə görüşən Azərbaycan Prezidenti İlham Əliyev torpaqlarımızda məskunlaşan sadə ermənilərə və separatçılara mühüm mesajlar verdi. Prezident "Biz öz doğma torpağımızdayıq və bu gün ermənilərin yaşadıqları Qarabağ bölgəsi bizim əzəli, hüquqi torpağımızdır. Sadəcə olaraq, biz hesab edirik ki, onlar özləri başa düşəcəklər, özləri gəlib Azərbaycan bayrağı altında yaşamağa addım atacaqlar.**

# Bakının qəti şərtlərini Xankəndidə eşitdilər - Araiki təslim etməsələr...

## Ermənilər başa düşürlər ki, nə Moskva, nə Paris, nə də İrəvan onların "müstəqillik" xülyalarının gerçəkləşməsinə, hansısa status əldə etmələrinə kömək edə bilməyəcək



Biz bunu gözləyirik. Ona görə hər hansı bir başqa addım atmırıq və hesab edirəm ki, iki il yarım ərzində baş vermiş hadisələr artıq onları da oyatmalıdır, bu yuxudan, bu xülyadan ayıltmalıdır" deyib.

**İ.Əliyev separatçılara da sərt xəbərdarlığını çatdırıb:** "Laçın diyarından onlara bir daha deyirəm ki, sizin kitabınız bağlandı. "Miatsum" kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı lazım olan yerə göndərmişik. Ona görə yeganə yol qalıb - Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dırnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, "parlament"i buraxmaq. Guya orada "parlament" fəaliyyət göstərir, guya orada prezident var, guya nazir var, bunlar hamısı gülməlidir. Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə "parlament" buraxılmalıdır, özünü "prezident" adlandıran ünsür təslim olmalıdır, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər. Ancaq o təqdirdə hər hansı bir amnistiyadan söhbət gedə bilər".

İlk dəfədir ki, Prezident Xankəndi separatçılarına bu cür açıq mətnlə xəbərdarlıq etdi və konkret şərtlər açıqladı. İndi, necə deyərlər, taleləri öz əllərindədir. Ya Bakının şərtlərinə əməl edəcəklər, ya da Azərbaycan öz ərazisindəki qondarma qurumları və separatçıları öz gücü ilə ram edəcək...

**Deputat Azər Badamov yada saldı ki, Qarabağda yaşayan ermənilər müzakirənin aparılması üçün iki dəfə Bakıya dəvət olunub:** "Amma separatçıların təsiri güclü olduğuna görə Xankəndidən nümayəndələr gəlmədi. Artıq onlar müzakirə ilə bağlı dəvət olunmaq şansını itirdilər. 28 mayda laçınlılarla görüşdə Prezident İlham Əliyev Qarabağda yaşayan erməni əhaliyə və separatçılara bundan sonra necə etmələri ilə bağlı yeganə yolu göstərdi. Separatçılar isə özlərinin saxta dövlət atributlarını zibil yeşiyinə atmalı və saxta qurumlardan imtina edərək boynunu bükub Bakıdan amnistiya üçün xahiş etməlidir. Əgər ermənilər onlara verilmiş bu şansdan istifadə etməzlərsə, antiterror əməliyyatı aparılaraq separatçılar həbs olunacaq. Ölkə başçımızın dediyi hər bir söz real həyatda öz əksini tapır. Prezident İlham Əliyevin sözünü havaya atmadığını bütün dünya, o cümlədən Ermənistan da bilir. Ona görə də Laçından ölkə başçımızın Qarabağda yaşayan ermənilərə göstərdiyi yeganə yolun alternativi olmayacaq və bu, onlar üçün son şansdır. Azərbaycan öz məqsədlərinə çatır və yavaş-yavaş irəliləyir. Qarabağda yaşayan ermənilər ölkə başçımızın dediklərindən nəticə çıxararaq öz gələcəklərini Azərbaycanda qurmaq üçün Bakıya müraciət etsələr, buna nail ola bilərlər. Əgər ordumuz antiterror əməliyyatını keçirməyə məcbur olarsa, vəziyyət tamamilə dəyişəcək və onlara heç kim kömək edə bilməyəcək".

**AMİP liderinin köməkçisi, politoloq Əli Orucovun sözlərinə görə, ermənilər başqa şans qoymurlar:** "Əvvəla, Laçın çox strateji bölgədir və burada möhkəmlənmək gələcək planların həyata keçirilməsi, suverenliyimizin tam bərpası üçün açar rolunu oynayır. Həm də Qarabağ iqtisadi zonasında yaşayan ermənilər görməlidir ki, bir tərəfdə iqtisadi gücə malik Azərbaycan, digər tərəfdə ciddi böhran yaşayan Ermənistan var. Mən heç də o fikirdə deyiləm ki, orada yaşayan ermənilərin hamısı axmaqdır, mövcud reallıqları dəyərləndirə bilmir. Lakin Xankəndindəki separatçı tör-töküntülər, Ermənistandakı revanşistlər, həmçinin Rusiya və Fransa kimi dövlətlər buradakı ermənilərin Azərbaycan cəmiyyəti ilə reinteqrasiyasına manea yaradırlar. Artıq başa düşürlər ki, nə Moskva, nə Paris, nə də İrəvan onların "müstəqillik" xülyalarının gerçəkləşməsinə, yaxud hansısa status əldə etmələrinə heç bir kömək edə bilməyəcək. Buna baxmayaraq, Azərbaycan hələ də onların "özfəaliyyətlərinə", uydurma strukturlarının mövcudluğuna səbir nümayiş etdirir. Təbii ki, addım-addım rəsmi Bakı öz məqsədlərinə çatır. Ermənilərin də etiraf etdikləri kimi, Prezident İlham Əliyevi dayandırmaq artıq mümkün deyil. Azərbaycan tərəfi bəzən həddindən artıq humanizm və səbir göstərir. Bundan da ermənilər sui-istifadə edirlər. Amma əvvəl-axır Bakı ilə hesablaşmaq məcburiyyətində qalırlar. Prezident İlham Əliyev Qarabağ iqtisadi zonasında məskunlaşan ermənilərə bir neçə dəfə xəbərdarlıq edib ki, separatçıların iki yolu var: ya Azərbaycan Bayrağı altında yaşayacaqlar, ya da ki, çıxıb gedəcəklər. Eyni zamanda onu da vurğulamışdı ki, özünü "prezident", "nazir", "parlament sədri" adlandıran təlxək toplusu rədd olub getməlidir. Göründüyü kimi, bu xəbərdarlıqlardan Xankəndidəki separatçılar nəticə çıxarmayıblar. Hətta müxtəlif pozuculuq fəaliyyətlərini davam etdirirlər, ağlasığmaz şərtlər irəli sürürlər və s. Təbii olaraq, rəsmi Bakı da bundan sonra səbr göstərə bilməz".

**Politoloq dövlət başçısının Laçından verdiyi sərt mesajlara da toxundu:** "Prezident İlham Əliyev 28 mayda Laçında yenidən məskunlaşan laçınlılarla görüşü zamanı tam aydın və sərt şəkildə Xankəndinə sonuncu xəbərdarlığını etdi. Bundan nəticə çıxarmayanların aqibətlərinin necə olacağını da konkret şəkildə ifadə etdi. Uzun müddət bu cür qeyri-müəyyənlik davam edə və Qarabağ iqtisadi zonasında məskunlaşan ermənilər özlərini əlahiddə statusda apara, özbaşına dövlət içərisində dövlət stukturları qura bilməzlər. Mənim fikrimcə, həmin qondarma "nazirlərə", "parlament üzvlərinə", "prezidentə" və digər strukturların məsul şəxslərinə heç bir amnistiya verilməməli, onlar Azərbaycan qanunları qarşısında layiq olduqları cəzaları almalıdırlar. Çünki onların əksəriyyəti Azərbaycana qarşı həyata keçirilən cinayətlərdə birbaşa və fəal iştirak edib. Üstəlik də onların islah olunmasını mümkün saymıram. Həm də vaxt itirmədən bunları etmək lazımdır. Onların öz pozuculuq və separatçı fəaliyyətlərində qalmaları bizim Xankəndi üzərində suverenliyimizin tam bərpa olunmasına imkan verməyəcək. İndi də ortaya Qarabağ iqtisadi zonasında yaşayan ermənilərin "hüquq və təhlükəsizliyinə beynəlxalq zəmanət" məsələsini atmaqla Azərbaycanın daxili işlərinə hansısa xarici dövlətlərin müdaxiləsinə şərait yaratmağa çalışırlar. Odur ki, alət kimi onlardan Azərbaycana qarşı istifadə edəcək qüvvələr də hər zaman olacaq. Zatən separatçı rejimin qondarma rəsmilərinin mövqeləri dəyişməz qalır və Xankəndini Azərbaycanın tərkib hissəsi kimi görmürlər. Belə olan halda bir yol qalır: o bölgədə istənilən əməliyyatı keçirmək və onları zərərsizləşdirmək. Bu vəzifənin öhdəsindən isə Azərbaycan iki-üç saat ərzində gəlməyə qadirdir. Fikrimcə, Azərbaycan əlverişli beynəlxalq və regional şəraitdən maksimum dərəcədə bəhrələnərək, tezliklə Xankəndini nəzarətə götürməli, qanunsuz silahlı birləşmələr zərərsizləşdirilməli, gələcək təxribat və məkrli planları üçün istifadə oluna biləcək bütün hallar aradan qaldırılmalıdır".

**❑ Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

## Paşinyanın müavini üçtərəfli görüşdən danışdı

**Ermənistan baş naziri Nikol Paşinyanın müavini Mher Qriqoryan Rusiya və Azərbaycandan olan həmkarları ilə görüşü haqqında danışıb.**

"Sputnik Armenia"ya xəbər verir ki, bu barədə o, jurnalistlərə müsahibəsində bildirib.

"Görünür, görüş bu həftə baş tutacaq. İşçi qrup çərçivəsində yalnız nəqliyyat kommunikasiyalarının açılması məsələləri müzakirə olunacaq. Başqa heç nə yoxdur", - deyə o bildirib.

Qeyd edək ki, görüşün 2 gün sonra Moskvada keçirilməsi nəzərdə tutulub.

## Ermənistan prezidenti baş nazirlə nələri müzakirə edib?

**"Ermənistanın cari gündəmindəki çox müxtəlif mövzularda baş nazir Nikol Paşinyanla başqa bir müntəzəm müzakirə aparmaqdan məmnunam".**

Bunu Ermənistan prezidenti Vahaqn Xaçaturyan tvitter səhifəsində yazıb.

"Regionumuzda qalıcı sülh və sabitliyi təmin etmək siyasətinə, səylərinə və öhdəliklərinə tam dəstəyimi bir daha ifadə etdim", - deyə o qeyd edib.

Bildirilib ki, görüşdə həmçinin iqtisadi məsələlər müzakirə edilib.

## İrəvanda yeni siyasi hərəkat yaradılıb

**Ermənistanda yeni siyasi hərəkat təsis olunub. "Sputnik Armenia" xəbər verir ki, "Ana Ermənistan" adlanan hərəkatın qurucuları mətbuat konfransı keçirib.**

Yeni hərəkatın keçmişin səhvlərindən qaçmaq və siyasi sistemin inhisara alınmamasını istədiyi bildirilib. Hərəkatın təşəbbüskarlarından biri, parlamentdəki müxalif "Hayastan" blokunun deputatı Andranik Tevanyan deyib ki, prioritet vəzifə təhlükəyə çevrilmiş hakimiyyətin dəyişdirilməsidir.

Revanşist əhval-ruhiyyədəki hərəkatın digər təsisçisi, diplomat Dzyunik Ağacanyan əlavə edib: "Ermənistan ekzistensial təhlükə ilə üz-üzədir və bu, 5 il əvvəl indiki komandanın hakimiyyətə gəlməsi ilə başlayan prosesin təbii nəticəsi sayıla bilər".

# Kişinyovda dördtərəfli görüş - nə sülh, nə müharibə...

## Bildirilir ki, Paşinyan Makronun dəstəyinə arxayın olaraq, sülhdən uzaq tələblər səsləndirmək niyyətindədir

**İyunun 1-də Avropa Siyasi Birliyinin sammiti çərçivəsində Kişinyovda dördtərəfli görüş Azərbaycan, Ermənistan liderləri, Fransa Prezidenti və Almaniya Kanslerinin iştirakı ilə keçiriləcək. Kişinyovda görüş təklifini Bakıya Fransanın xarici işlər naziri gətirmişdi, ehtimal edilir ki, Əliyev bu görüşə Şoltsun da iştirakı şərti ilə razılaşıb. Kişinyov görüşündə Almaniya və Fransa liderlərinin iştirakı çox mühümdür. Çünki Azərbaycan tərəfi öz geosiyasi baxış bucaqlarını və Ermənistanın öhdəliklərini Aİ-nın iki aparıcı dövlətinin liderinin diqqətinə çatdıracaq.**

Moskva görüşünün fiasko olması üçün hər şey edən Paşinyan Kişinyov görüşünə ciddi ümid edir. Erməni baş nazir bir müddət əvvəl "1 iyun tarixində sülh müqaviləsini imzalamağa ümid edirəm" demişdi. Son olaraq isə Paşinyan deyib ki, "İrəvan və Bakı arasında razılaşdırılmış və imzalanmağa hazır sülh müqaviləsi yoxdur. Ermənistan tərəfi Vaşinqton görüşündən əvvəl verdiyi təkliflərə hələ Azərbaycandan cavab almayıb", - o əlavə edib.

Bildirilir ki, Paşinyan Makronun dəstəyinə arxayın olaraq, Kişinyovda sülhdən uzaq tələblərini səsləndirmək niyyətindədir. Bu tələblər sırasında Ermənistanın 29,8 min kvadratkilometr ərazisinin toxunulmazlığına qarantiya və Azərbaycan Ordusunun sərhəd xəttindən geri çəkilməsi də var. O cümlədən Paşinyan Qarabağdakı erməni əhalisinin "hüquq və təhlükəsizliyi" və Bakı -Xankəndi danışıqlarının "beynəlxalq çərçivədə aparılmasını" razılaşdırmaq istəyir.

Aydındır ki, bu absurd təkliflər Vaşinqtondakı bir neçə raundda baş tutan görüşlərdə də qaldırılıb, amma Bakı bunları rədd edib. Kişinyov görüşündə əsasən sülh müqaviləsinin müddəaları və regional kommunikasiyaların perspektivləri barədə ətraflı danışıqlar aparılacağı gözlənilir. Ancaq bu görüşdə də sülh sazişin imzalanması inandırıcı görünmür. Bəs o zaman Paşinyan bu görüşdə nəyə ümid edir? Fransa və Almaniyanın dəstəyinə, yoxsa bu təkliflər sülh müqaviləsinin imzalanmasından yayınmaq üçün növbəti bəhanədir?

**Siyasi şərhçi Abutalıb Səmədov "Yeni Müsavat"a bildirdi ki, Avropa Siyasi Birliyinin Kişinyovda keçiriləcək ikinci sammitində sülh sazişinin imzalanması ehtimalı az da olsa, qalmaqdadır:** "Bu hadisənin baş verməsinin mümkünlüyü barədə Nikol Paşinyandan başqa fikirləri bizim üçün daha mötəbər olan Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva da müəyyən mülahizələr səsləndirmişdi. Üstəlik, az qala hər gün mövqe dəyişdirən Ermənistanın baş nazirindən fərqli olaraq Leyla xanım sazişin imzalanmasının mümkünlüyü barədə dediklərindən imtina etməyib. **Onun sözlərinə görə, əslinə qalsa, sülh sazişi üçün əsas manea Qarabağ məsələsi barədə müəyyən müddəaların həmin sənədə salınması tələbi idi:** "Paşinyanın bəyanat verərək bu iddiadan imtina etməsindən sonra belə bir təsəvvür yarandı ki, sülh sazişinin imzalanmasına gedən yol artıq tamamilə açılıb və qısa müddətdə sənədin imzalanması mümkündür. Təbii ki, bu gedişat Rusiyanı qətiyyən qane etmirdi və sülh prosesini tormozlamaq üçün dərhal "Valday təxribatı" törədildi. Rusiya prezidenti sülh sazişi layihəsinə Qarabağ məsələsi barədə 15-ci bəndi salmaqla erməniləri şirnikləndirdi. Paşinyan təklifdən "dördəlli" yapışsa da Soçi danışıqları fiaskoya uğradı və Azərbaycan həmin layihəni tarixin zibilliyinə göndərdi. Ermənistan liderinin bütün yalvarışlarına baxmayaraq, Rusiya həmin sülh layihəsini bir daha ortaya çıxarmadı".



**A.Səmədovun sözlərinə görə, "Qarabağ kartı" əlindən çıxan Paşinyan prosesi pozmaq üçün yeni iddialar ortaya atmaqda davam edir:** "Tələb edir ki, həm Azərbaycan-Ermənistan sərhədində, həm də Qarabağda 5 km-lik silahsızlaşdırılmış zonalar yaradılsın. Bu təklifin Azərbaycan tərəfindən qəbul edilməsi təbii ki, mümkün deyil. Sən Ermənistan ərazisində nə qədər istəyirsən silahsızlaşdırılmış zona yarada bilərsən, Azərbaycan ərazisində, xüsusilə Qarabağda belə bir zonanın yaradılması təklifi dövlətimizin suverenliyinə müdaxilədir və bu səbəbdən təklifin qəbul edilməsi mümkünsüzdür. Danışıqlarda problem yaradan digər məsələ Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin təmin olunmasında beynəlxalq mexanizmlərin iştirakının təmin olunması təklifidir ki, bu da suverenliyimizi pozduğuna görə qəbul edilməzdir. Ermənilərin imzalanacaq sülh sazişinin icrasını təmin edəcək qarant dövlətlərin olması tələbi də prosesi əngəlləmək cəhdindən başqa bir şey deyil.

Son Brüssel danışıqlarından sonra bəyanatla çıxış edən Şarl Mişel Azərbaycandan Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinin təmin olunması məqsədilə "beynəlxalq ictimaiyyətlə birlikdə pozitiv gündəliyi hazırlamağı" xahiş edib. Avropa Birliyi rəsmisinin bu bəyanatı göstərir ki, Kişinyovda danışıqlar kifayət qədər gərgin keçəcək, həm Fransa Prezidenti Makron, həm də Almaniya Kansleri Şolts "beynəlxalq mexanizmləri" prosesə qoşmaq üçün əllərindən gələni edəcəklər. Paşinyanın Kişinyov danışıqlarında nail olmaq istədiyi əsas nəticə də odur. Ancaq biz Azərbaycan Prezidentinin bu danışıqları aparmaqda necə usta olduğunu, öz mövqeyini necə qətiyyətlə müdafiə etdiyini yaxşı bilirik. Məhz bu səbəbdən ermənilərin Azərbaycan tərəfdən hansısa güzəştə nail olmaq planları boşa çıxacaq. Əgər Fransa və Almaniya liderləri Paşinyana zəruri təzyiqi göstərsələr, sazişin imzalanması mümkün olacaq. Əks halda, ermənilərin və fransızların "Kişinyov xəyalları" reallaşmayacaq və çox güman ki, sülh sazişinin imzalanması ilin sonuna qədər uzanacaq".

***P.S.** Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında görüş bu gün baş tutacaq. "Sputnik Armenia" xəbər verir ki, bu barədə Aİ-nin yüksək səviyyəli nümayəndəsinin Brüsseldə jurnalistlərə verdiyi məlumatda qeyd olunub.*

**❑ Etibar SEYİDAĞA**
**"Yeni Müsavat"**

# İrəvan yalançılıqdan əl çəkmir

## XİN: "Azərbaycanın qısa müddətdə gördüyü işləri həzm edə bilmirlər"

**"Yaxşı olardı ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə sözdə deyil, əməldə riayət etsin".**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycan əleyhinə 29 may tarixli bəyanatına dair şərhində deyilir.

"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Laçın rayonunda 28 may 2023-cü il tarixində səsləndirdiyi fikirlərə və çağırışlara istinadən Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən növbəti dəfə verilmiş qərəz dolu əsassız bəyanatı qətiyyətlə rədd edirik.



Ermənistan tərəfinin bu bəyanatı Azərbaycan ərazilərini 30 il işğal altında saxlayan, azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirən, şəhər və kəndləri viran qoyan Ermənistanın, bu əraziləri işğaldan azad etdikdən sonra yenidənqurma işləri aparan, ərazilərdən kütləvi şəkildə vəhşicəsinə qovulmuş əhalinin geri qayıtması üçün bütün şəraiti yaradan Azərbaycanın qısa müddətdə gördüyü işləri həzm edə bilməməsinin təzahürüdür.

Görünür, Ermənistan bununla eyni zamanda işğalına 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatın müddəalarına uyğun olaraq son qoyulduğu Laçından öz qüvvələrini çıxırarkən bu ərazilərə dinc sakinlərin geri qayıtmasına maneçilik törətmək məqsədilə 2700-dən artıq mina yerləşdirməsi və evlərə mina tələlər qoyması kimi əməllərini də ört-basdır etmək və beynəlxalq ictimaiyyətin diqqətini yayındırmaq məqsədi daşıyır.

Azərbaycan Respublikasının Prezidentinin ərazi bütövlüyü və suverenliyə hörmət edilməsinin zəruri olduğuna, Azərbaycanın daxili işlərinə qarışmağın qəbuledilməzliyinə və bölgədə separatçılığın təşviq edilməsinə xidmət edən addımların qarşısının qətiyyətlə alınmasına istiqamətlənən çağırışlarının Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən qəsdən təhrif edilməsi Ermənistan XİN-in tarixdən dərs çıxartmadığını nümayiş etdirir.

BMT Nizamnaməsinə və beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq Azərbaycana qarşı təcavüz aktı törədən, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini heçə sayaraq işğala son qoymayan Ermənistanın Azərbaycanın güc tətbiq etməklə hədə törətdiyini iddia etməsi gülüncdür.

Nəinki işğal etdiyi Azərbaycan ərazilərində, Ermənistanda belə bütün azərbaycanlı əhalini öz doğma torpaqlarından qovan bir ölkənin guya Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərə qarşı "etnik təmizləmə" niyyəti güddüyünü iddia etməsi tamamilə əsassızdır. Azərbaycan yerli erməni sakinlərin reinteqrasiyası istiqamətində bütün zəruri addımları atmaq niyyətindədir.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı səslənən fikirlərin və cəhdlərin qarşısının alınması Azərbaycanın suveren hüququdur və bu, beynəlxalq hüququn norma və prinsiplərə uyğundur. Ermənistanın buna zidd fəaliyyətləri və Azərbaycanın erməni sakinlərlə dialoq səylərinə müdaxiləsi ölkəmizin daxili işlərinə qarışmaqdır və Ermənistan tərəfindən səslənən "ərazi bütövlüyü və suverenliyə dəstək" barədə pafoslu bəyanatlarla ziddiyyət təşkil edir.

Bölgədə sülh və sabitliyə hazırlıq niyyəti saxta çağırış və vədlərlə deyil, real addımlarla ölçülür. Sülhün bərqərar edilməsi istiqamətində baza prinsiplərini ilk olaraq təklif edən, sülh müqaviləsi mətnini ilk olaraq irəli sürən, bölgədə kommunikasiyaların açılması səylərini irəlilədən, delimitasiya üzrə komissiyanın təsis edilməsini və bu istiqamətdə işləri ilk təşviq edən, sərhəddə yolunu azmış hərbçilərin geri qaytarılması kimi etimad quruculuğu tədbirlərini irəlilədən tərəfin məhz Azərbaycan olduğu hər kəsə bəllidir. Bütün bu səylərə hər vəchlə maneçilik törədən tərəfin də məhz Ermənistan olduğu hər kəsə aydındır.

Beləliklə, yaxşı olardı ki, Ermənistan tərəfi sülh yaradılması səylərinə maneçilik törətmək, saxta və yalançı bəyanatlar vermək əvəzinə, Azərbaycanın Qarabağ bölgəsi daxil, ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə sözdə deyil, əməldə riayət etsin".

YENİ MÜSAVAT
N 93 (8229) 31 may 2023

**Gözləntilərə baxmayaraq, mayın 25-də Moskvada üçtərəfli görüş heç bir rəsmi sənəd imzalanmadan başa çatdı. Ali Avrasiya İqtisadi Şurasının geniş tərkibdə iclasında Ermənistanın baş nazirinin əslində təxribatçı açıqlamaları - Azərbaycanın guya bu ölkəyə ərazi iddiası olduğu, Laçın yolunun bağlandığı haqda yalanları danışıqlarda bir nəticə olmayacağına işarə idi.**

# Prezident Əliyevin Laçın postu ilə bağlı o sözü və son nöqtəsi

## Kişinyov görüşündə Makron Laçın yolundakı nəzarət mexanizmi haqda nəsə deyə bilər ki, bunun da heç bir əhəmiyyəti olmayacaq

Paşinyan çıxışında dedi ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanata görə, Laçın dəhlizi Rusiya sülhməramlılarının nəzarəti altında olmalı idi, lakin "Azərbaycan tərəfindən qanunsuz olaraq bloklanıb".

**Ancaq iqtisadi bir platformada Paşinyanın siyasi çıxışı cavabsız qalmadı, Azərbaycanın dövlət başçısı dedi ki, dəhliz bloklanmayıb:** "Laçın-Xankəndi yoluna gəldikdə, o açıqdır. Sizin tanıdığınız Ermənistan və Azərbaycan sərhədindən bütün beynəlxalq normalara uyğun olaraq nəzarət-buraxılış məntəqəsi qoyulub. Bu nəzarət-buraxılış məntəqəsi Rusiya sülhməramlı kontingentinin postundan 20 metr aralıda yerləşir. Bu gün həmin nəzarət-buraxılış məntəqəsindən erməni milliyyətindən olan Azərbaycan vətəndaşları Ermənistan tərəfə sərbəst keçirlər. O cümlədən Qırmızı Xaçın xətti ilə daşınan pasiyentlər, həmçinin Xankəndi şəhərindən təcili yardım maşınları ilə bağlı heç bir maneə yoxdur. Hər hansı qərəzsiz insan, təbii ki, bunu görməlidir".

**Prezident İlham Əliyev Laçına son səfərində bu məsələyə bir daha toxundu, əslində isə erməni xəyallarına son qoydu. Sitat:** "Biz 23 aprel tarixində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoyaraq məsələni birdəfəlik həll etdik, ərazi bütövlüyü məsələlərini birdəfəlik həll etdik. Onsuz da İkinci Qarabağ müharibəsi nəticəsində ərazi bütövlüyümüz bərpa edilmişdir. Ancaq sərhəd-buraxılış məntəqəsi son məntəqə idi ki, Ermənistandan Azərbaycanın Qarabağ bölgəsinə və əks istiqamətə oradan nəzarətsiz hərəkət var idi. Hərəkət indi də var, amma tam nəzarət altındadır". **Dövlət başçısı daha sonra deyib ki, aprelin 23-də sərhəddə qoyulan sərhəd-buraxılış məntəqəsi Qarabağ bölgəsində yaşayan ermənilər üçün də bir dərs olmalıdır**: "Əfsuslar olsun, onlar bu günə qədər kiməsə arxalanırlar ki, kimsə gələcək, onları xilas edəcək, kimsə gələcək Azərbaycanla müharibə aparacaq. Bunlar hamısı cəfəngiyyatdır. İkinci Qarabağ müharibəsi zamanı biz güclü iradə göstərmişik və əgər o vaxt heç kim bizə qarşı kənardan müdaxiləyə cürət etmədisə, bu gün bütün bu torpaqlara yenə də sahib olandan sonra kim gəlib ermənilərin yerinə bizimlə vuruşacaq".

Bu, hələ də Laçın yolunda yenidən özbaşına hərəkət etmək, istədikləri silahları və qanunsuz dəstələri Qarabağa yerləşdirmək arzusundan əl çəkməyən ermənilərə xəbərdarlıqdır. Bu, həm də Kişinyov görüşündə Azərbaycana bu məsələdə təzyiq yaratmaq istəyən Ermənistana və onun havadarlarına açıq xəbərdarlıqdır ki, Laçın postu ilə bağlı heç nəyə və heç kimə ümid etməsinlər. Doğrudur, hansısa gizli yollarla, rusların müşayiəti ilə Xəlifəli-Kərkicahan istiqaməti ilə separatçı silahlı birləşmələrin döyüş mövqelərinə silah daşınması halları var. Lakin Azərbaycan tezliklə bu məsələnin də kökünü qazacaq. Kişinyov görüşündə isə ən pis halda, Makron Laçın yolundakı nəzarət mexanizmi haqda nəsə çərənləyə bilər ki, bunun da bir əhəmiyyəti olmayacaq.

Siyasi analitiklər bu mövzuda hansı qənaətdədir? Laçın yolundakı NBM-lə bağlı təzyiqlər güclənə bilərmi? Fransa prezidentinin bu məsələni müzakirəyə çıxarması mümkündürmü? Əliyevin bəyanatları məsələyə möhür vurulduğunu deməyə əsas verirmi?

**Siyasi şərhçi Ramiyə Məmmədovanın sözlərinə görə, Moskvada Laçın postu haqda danışılanda Putin reaksiya bildirmədi. Onun fikrincə, bundan sonra Makron, yaxud Avropa Birliyi Bakıya hər hansı təzyiq edə bilməz, etsə belə, nəticəsi olmayacaq.** "Hansı ölkənin sərhəd-keçid məntəqəsi olmur? Belə nümunə varsa, bizə də göstərilsin. Əgər üçtərəfli sənədə istinad edilirsə, o halda 10 noyabr razılaşmasına bir daha baxsınlar. Orada deyilmir ki, Laçın dəhlizi ilə silah-sursat, mina, hərbi qüvvə daşınmasına icazə var. O yoldan humanitar məqsədlər üçün istifadə edilə bilər. Ermənilər isə özlərini pis apardılar və bu da cavabıdır. Əgər silah daşınmasaydı, sərhəd məntəqəsinə bəlkə də zərurət olmazdı. Ruslar üzərinə düşən öhdəliyi yerinə yetirmədiyi üçün özümüz bu işi görmüşük. Yol bağlı deyil, sadəcə, nəzarət var. Ermənilərin içində xain plan yoxdursa, adam kimi gedib-gəlirlərsə, bu postdan niyə narahatdırlar?", - deyə ekspert ritorik sual verir.





**Təhlilçinin dediyinə görə, rus-erməni birləşməsi yenə həyasızlığı davam etdirir:** "Biz yola nəzarət postu qoyuruq, onlar ayrı keçidlər tapırlar ki, səngərə silah daşısınlar. Buna Paşinyan cavab verməlidir. Kim ona ixtiyar verib ki, Ermənistan ərazisindən Qarabağa hərbi texnika daşınsın? Əgər baş nazir Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf edirsə, niyə bu torpaqlarda erməni hərbçisi var və nə üçün onlara silah göndərilir? Tamamilə absurd məsələdir və Moskva görüşündə də Paşinyan bu məsələlərə aydınlıq gətirməli idi. Ona görə də Ermənistanla sərhəddə qurduğumuz nəzarət mexanizmini hansısa qüvvə oradan yığışdıra bilməz".

**Politoloq Elxan Şahinoğlunun sözlərinə görə, bugünlərdə Moskvadan qayıdan Ermənistanın baş naziri Nikol Paşinyan iyunun 7-də yenidən Rusiyaya iki günlük səfər edəcək:** "Nikol Paşinyan son Moskva görüşündən narazı qaldığını gizlətməyib. Onu narazı salan Kremlin Laçında sərhəd-keçid məntəqəsinin yaradılması ilə bağlı Bakıya təzyiq etməməsidir. Buna baxmayaraq, Paşinyan Kremlin hər səfər çağırışına "əmr edərsiniz" deyib Rusiyaya yollanır. Nikol iyunun 1-də Azərbaycan Prezidenti İlham Əliyevlə görüşəcək, vasitəçi Brüsselə yanaşı, Paris və Berlin olacaq. Görünür, Kreml Paşinyandan bu görüşün hesabatını istəyəcək. Paşinyan Kremli rahatlatmaq üçün bəri başdan deyib ki, Kişinyovda sülh sazişi imzalanmayacaq".

**Siyasi ekspert Asif Nərimanlı hesab edir ki, Əliyevin təslim olmaq və amnistiya imkanı ilə bağlı çağırışını separatçıların ciddiyə almaq istəmədikləri görünür:** "Gün ərzində verdikləri açıqlamalarda "müstəqil ölkə" olduqlarından danışır, təslim olmayacaqlarını bildirirlər və belə görünür ki, "ermənilərə qarşı terror edilir" iddiası ilə beynəlxalq təşkilatlara müraciətləri artırmaq niyyətindədirlər, hərçənd beynəlxalq səviyyədə qəbul olunan hansısa bəyanat, yaxud Bakıya edilən çağırışların heç bir praktiki tərəfi yoxdur. Bu vəziyyətdə Bakının praktiki addımlar atmaqdan başqa yolu qalmır, əslində Əliyevin məsələni "Üçüncü dəvət olmayacaq, ya özləri boyunlarını büküb gələcəklər, ya da ki, indi hadisələr başqa cür inkişaf edəcək" formasında qoyması da hadisələrin bu istiqamətdə inkişafı gözləntisini artırır. Müdafiə Nazirliyinin son məlumatları da - "qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri kənd təsərrüfatı işləri adı altında ordumuzun Ağdam, Xocavənd, Şuşa, Laçın və Kəlbəcər rayonları istiqamətlərində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər", "qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən ordumuzun Ağdam rayonu istiqamətində yerləşən mövqeləri müxtəlif çaplı atıcı silahlardan atəşə tutulub" - yaxın dövrdə praktiki addımların atıla biləcəyindən xəbər verir".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**



# İtkin düşmüş hərbçilər iki il sonra ölmüş elan ediləcək

**Hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşmüş hərbi qulluqçu və ya digər şəxsin ölmüş elan edilməsinə dair yeni prosedur müəyyənləşir. Bu, Milli Məclisin son iclasında müzakirəyə çıxarılan və parlamentin plenar iclasına tövsiyə edilən Mülki Məcəlləyə təklif olunan dəyişiklikdə əksini tapıb.**

Qanuna əsasən, hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşmüş hərbi qulluqçu və ya digər şəxs hərbi əməliyyatların qurtardığı gündən azı iki il keçdikdən sonra məhkəmə qaydasında ölmüş elan edilə bilər. Təklif olunan dəyişikliyə əsasən isə məhkəmə şəxsin hərbi əməliyyatlarda həlak olduğunu güman etməyə əsas verən halları nəzərə alaraq, onu bu müddət bitməzdən əvvəl, lakin hərbi əməliyyatların qurtardığı gündən 6 aydan tez olmayaraq ölmüş elan edə bilər.

Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.

# Ordumuz real döyüş şəraitində təlimlər keçdi

**Cari ilin hazırlıq planına əsasən, ümumqoşun poliqonunda Raket və Artilleriya Qoşunlarının bölmələrində keçirilən döyüş atışlı taktiki təlimlər davam edir.**

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Plana uyğun olaraq, daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılan bölmələr atəş mövqelərini tutaraq qurğuların döyüş tətbiqinə hazırlanması və icrası üzrə nəzərdə tutulan tapşırıqları normativə uyğun yerinə yetiriblər.

Vətən müharibəsi və son əməliyyatlarda qazanılan təcrübə nəzərə alınmaqla real döyüş şəraitinə uyğun keçirilən təlimlərdə bölmələr reaktiv yaylım atəşi sistemi və özüyeriyən haubitsalardan nümunəvi döyüş atışları icra ediblər.

Döyüş atışlı taktiki təlimlərdə şərti düşmənin idarəetmə məntəqələrinin, canlı qüvvəsinin və digər hədəflərinin aşkar edilməsi, eləcə də müəyyən olunaraq məhv edilməsi üzrə qarşıya qoyulan tapşırıqlar peşəkarlıqla icra olunub.



# Cərimənin hakimlər ödəsin

Zamin HACI
zaminhaci@gmail.com

**"Dövlət ağıllının nökəridir, axmağın ağası"**
*(ata sözü)*

**Belə rəvayət edirlər ki, keçmişdə bəzi ölkələrdə körpü tikəndən sonra ilk sınaq zamanı ustanı körpünün altında qoyurmuşlar. Əgər araba, adamlar keçəndə körpü uçsa, qoy həm də usta ölsün məntiqi ilə. Bu da ustalarda işlərinə məsuliyyət yaradırmış.**

Molla Nəsrəddində də oxşar lətifə var, tam yadımda qalmayıb, özəti belədir: padşah yemək konkursu keçirdir, Molla nəsə ağzına gələn bir resepti yazıb göndərir. Padşah qəzəblənir, həmin yeməyi Mollanın özünə yedirir. Molla baxır çox ürəkbulandıran, yemək mümkün olmayan bir şeydir, deyir mən bunun nəzəriyyəsini bilirdim, əməliyyəsini yox.

Sözü nəyə gətirirəm? "Tərtər işi"ndə günahsız yerə işgəncələrə məruz qalan, həbsdə yatan bir neçə hərbçimiz bəraət alıb, məhkəmə onlara dəyən zərərin maddi baxımdan ödənilməsi qərarını verib. Örnək üçün, 5 il 6 ay qazamatda saxlanılmış bərdəli "MAXE" (müqaviləli əsgər) Müşfiq Əhmədliyə 123 min 486 manat kompensasiya ödənilməlidir. Bunun çox olduğunu düşünsəniz səhv edərsiniz. Çünki həmin pul belə hesablanıb: 66 min manat həbsdə olduğu hər ay üçün 1000 manatdan götürməklə, üstəgəl, maddi ziyan üçün 57 min 486 manat. Sadəcə, düşünün ki, 1 adamın bizim türmələrdə 1 ay qalması onun ailəsinə, sağlamlığına, gələcəyinə neçəyə başa gəlir. Hələ heç mənəvi ziyanı-zadı hesablamıram, hesab edək bizdə bu ziyan aşağı olar, çünki camaatımız əksinə, türmədə yatıb-çıxana hörmət eləyir.

Başqa 2 əsgər də var, ümumilikdə bunlara 361 min manat ödənməlidir. Lakin dövlət heç 1 manat da ödəmək istəmir. Maliyyə Nazirliyi məhkəməyə cavab göndərib ki, bu şəxslərə biz ziyan vurmamışıq, ona görə pulu ödəmirik.

Əcəb işdir. Sanki söhbət Maliyyə Nazirliyinin öz şəxsi pulundan gedir. Adamlara ziyanı vuran, qanunsuz mühakimə edən və türmədə saxlayan dövlətdir. Nazirlik və ona idarə etmə üçün verilən pullar da dövlətindir. Lakin kompensasiya ödəmək lazım gələndə, deyirlər "bizlik deyil, biz tutmamışıq, gedin tutanlardan alın".

Prinsipcə, burada dolayısı ilə həqiqət payı var. Hüquqi yox, hərfi mənada. Hüquqi baxımdan nazirlik pulları mütləq ödəməlidir, yuxarıda yazdığım kimi, hələ cərimə az yazılıb. Bəs həqiqət payı nədədir?

Ondadır ki, bu adamları 5-6 il qabaq qanunsuz hökmlərə məruz qoyan hakimlər, prokurorlar, müstəntiqlər öz keflərindədir. Niyə bizim qanunvericilikdə belə prosedur olmasın: bəraət verilən adama vurulmuş ziyanı ona qanunsuz hökm kəsənlər ödəməlidir. Başa düşürəm, bu, hakimlər üzərində bir növ təzyiq vasitəsi olar, tənzimləmək çətindir, ancaq niyə də olmasın? Bəlkə məsuliyyəti bu yolla hiss edərlər. Yoxsa hər il Avropa Məhkəməsi də azərbaycanlı hakimlərin qanunsuz qərarları üzrə onlarla cərimə kəsir, bu pulları dövlətimiz ödəməyə məcbur olur, həmin hakimlər isə ortada yeyib qıraqda gəzirlər. Xeyir ola? Dövlət büdcəmiz içinə siçan daraşmış taxıl anbarıdır, hərə bir yandan talamalıdır? Ən azı kompensasiyanın yarısını, hansısa hissəsini hakimlərə şələməliyik. Maşallah, hərəsinin topdağıtmaz villaları, bahalı maşınları, milyonları var. Canları çıxmaz.

Zığ şossesində təzəlikcə faciəli yol qəzası oldu. Gecənin qaranlıq vaxtı yolu keçən 3 nəfəri maşın vurdu, öldülər. Orada küçə işıqlanması yoxmuş, sürücü piyadaları görə bilməyib. Şahidlərin, ərazidə yaşayanların sözlərinə inansaq, bu ilk belə qəza deyilmiş. İndi mən soruşuram: nəyə görə belə hallarda cəzanı, cəriməni yalnız sürücü çəkməlidir? Bəs yol idarəsinin, yerli icra orqanının, bələdiyyənin, lap elə yol polisinin günahı yoxdurmu? Dövlət orqanları yolun təhlükəsizliyini, o cümlədən işıqlanmasını təmin etməlidir. Ağac kəsənləri cərimə edirik, lap yaxşı. Adamların ömrünü kəsənləri niyə cərimə etmirlər?



# Azərbaycan müxalifətinin Kılıçdaroğluna dəstəyinin səbəbi

## Vaxtilə Yuşşenkoya, Saakaşviliyə ümid bəsləyənlər bu dəfə yanlış seçimin acısını yaşadılar

**Kamal Kılıçdaroğlu həm parlament, həm də prezident seçkisində növbəti dəfə məğlub oldu. Ekspertlər hesab edir ki, bu məğlubiyyətdən sonra CHP lideri Kamal Kılıçdaroğlu Türkiyədə bələdiyyə seçkilərində iştirak edə bilməz. Perspektivli namizədlər arasında Mansur Yavaş, Əkrəm İmamoğlunun adı çəkilir. CHP-nin yeni lideri olmasa, müxalifət bələdiyyə seçkilərində də məğlubiyyətə düçar ola bilər. Xüsusilə İstanbul və Ankara kimi böyük şəhərlər yenidən AKP-nin nəzarətinə keçə bilər.**

Seçki müddəti və ondan sonrakı dövrdə Azərbaycan müxalifətinin əksər nümayəndələrinin Kamal Kılıçdaroğluna dəstəyi nəzərdən yayınmadı.

**Siyasi şərhçi Elçin Mirzəbəyli** "Yeni Müsavat"a bildirdi ki, son 30-31 il ərzində bu ölkədə bir qrup insanın dünyagörüşündə heç bir dəyişiklik baş verməyib. E.Mirzəbəyli qeyd etdi ki, hər hansı ölkədə iğtişaş baş verəndə, yaxud kənardan dəstəklənən, "beşinci kolon" funksiyasını yerinə yetirən qüvvələr önə çıxanda sözügedən qrup emosiyaları "şahə qaldırır", ortaya faciəli nəticələr çıxdıqdan sonra isə "endirirlər". Beləcə "rəngli inqilab" ssenarilərinə uyğun "köynəklərini", "bayraqlarını", siyasi orientasiyalarını dəyişirlər və hər dəfə yanılırlar: ""Ərəb baharı"ndan geridə qalan cəhənnəmdən də dərs götürmədilər. Təəssüf ki, bəzən vaxtımızın bir hissəsini bu fəlakət dəllallarına sərf etməli oluruq... Azərbaycanın radikal müxalifətinin siması budur. Onlar düşünürlər ki, ayrı-ayrı ölkələrin dəstəklədiyi siyasi qüvvələr önə keçəndə bu onlar üçün də müəyyən zəmin yaradacaq və Azərbaycanda qarşıdurma, kataklizmlər yaratmaqla siyasi hakimiyyətə etirazlarını təmin etməyi bacaracaqlar. Əsas məqsəd Azərbaycanın milli maraqlarına zidd olan qrupların yanında olmaqdır. Təəssüf ki, bu gün Azərbaycan müxalifətinin özünü radikal adlandıran bir qismi xarici maraqların izindədir. Türkiyədə Kamal Kılıçdaroğlunun Azərbaycanın əleyhinə çıxışlarına baxmayaraq, müxalifətin dəstəyi əslində bu insanların milli maraqlardan nə qədər uzaq olduğunun göstəricidir. Hesab edirəm ki, Ərdoğan sayəsində 44 günlük müharibədə Türkiyənin Azərbaycanın yanında olması vəfa borcu yaradıb. Sözügedən müxalif qisim bu dəyərləri də nəzərə almır. Ümumiyyətlə, Azərbaycan radikal müxalifəti tükənmiş vəziyyətdədir".

**AĞ Partiya sözçüsü Cavanşir Abbaslı da hesab edir ki, mayın 14-ü və 28-i tarixlərində qardaş Türkiyədə baş tutan seçkilərdə təkcə AKP və ya Ərdoğan deyil, həm də Azərbaycan xalqı və prezident İlham Əliyev uddu. C.Abbaslının fikrincə, ölkə rəhbəri Qarabağ münaqişəsinin tam həllində Azərbaycanın yanında sona qədər qardaş ölkənin rəhbərinin olacağına əmin olduğu üçün ilk gündən mövqeyini açıq şəkildə ortaya qoydu:** "Azərbaycan müxalifətinin böyük qismi isə əks-mövqe göstərdi. AĞ Partiya və dostumuz, hörmətli Pənah Hüseyn istisna olmaqla, müxalif düşərgədən heç kəs açıq şəkildə mövqe ifadə etmədi. "Xala xətrin qalmasın" edənlər də mayın 28-i axşam saatlarına qədər mövqelərini malalamaqla məşğul oldular. Hətta müxalifətin vahid namizədini açıq şəkildə müdafiə edənlərə də rast gəldik. Mayın 28-də Respublika Günü ilə əlaqədar Novxanıda Cümhuriyyətimizin qurucusu Məhəmməd Əmin Rəsulzadənin abidəsini ziyarət edən, əsasən AXCP-dən ibarət olan Milli Şura rəhbərliyi tədbirin sonunda Türkiyə müxalifətinin seçki dövründəki mitinqlərdə göstərdikləri "ürək" işarəsini nümayiş etdirdi. Bu da, sadəcə, həyasızlığın son həddi idi. Nəticələr açıqlanar-açıqlanmaz isə bu müxalif qismin tərəfdarları, hətta rəhbərliyində təmsil olunan bəzi şəxslər Türkiyə müxalifətinin dilinə gətirmədiyi qanun pozuntuları iddialarını səsləndirməyə başladılar. Ölkədəki "Sem dayının uşaqları", yeni özlərini liberal göstərən qisim, bir sözlə "müstəmləkə aşiqləri" daha fəal idilər. Özlərini Rəsulzadənin yaratdığı partiyanın təəssübkeşləri sanıb, onun davamçıları kimi cəmiyyətə sırımağa çalışanları da bu prosesdə unutmaq olmaz. Hələ "Cümhuriyyətçilərik" deyib guya Türkiyədəki cümhuriyyətçilərin yanlarında özlərini göstərməyə çalışanlar da başqa bir dərd idi... Adama sual verərlər ki, onlardan sizlərə nə?"

**Partiya sözçüsü "Niyə məhz Ərdoğan" sualımıza belə cavab verdi:** "Bilirsiniz, kimlərsə düşünə bilər ki, hər kəsin seçimi var, amma Ərdoğan Vətən müharibəmizdə oynadığı rolla hər cür dəstəyə layiq idi. Düşünürəm ki, az sayda əks-mövqe nümayiş etdirən oldu ki, onların mövqeyi heç nəyi həll etmirdi və sadəcə, "milçək vızıltısı" təsiri bağışladı. Zatən onlardan bundan başqa nə gözləmək olardı? Məhz onların arasından II Qarabağ savaşında sülh istəyən "sülh göyərçinləri" peyda olmuşdu. Eyni zamanda yaxın tarixi unutmamışıq. Vaxtilə Ukrayna, Gürcüstan kimi ölkələrdə seçki prosesi ilə əlaqədar inqilab baş verən kimi bu müxalifət dərhal həmin ölkələrdəki müxalifətə can-başla dəstək verməyə başladı. Həmin ölkələrdə müxalifət hakimiyyətə gəlsə də, prezident seçilən Viktor Yuşşenko və Mixail Saakaşvili nəinki bunlara təşəkkür etmədi, əksinə, Azərbaycana səfər zamanı müxalifət nümayəndələrinə salam belə vermədilər. İndi də Kamal Kılıçdaroğluna ümid bəsləyirdilər, lakin bu ümidləri də puç oldu. Bir də lap dəyişiklik olsaydı belə, bu düşərgəyə qızıl məcməyidə hakimiyyətin açarı veriləcəkdi? Sadəcə, burada bircə əsas səbəb var. Özlərini "ana" və ya bilmirəm, "ata" müxalifət adlandıranlar o qədər məğlubiyyət, uğursuzluq sindromu yaşayıblar ki, hansı ölkədə seçkilər keçirilirsə, dəyişiklik şansı yaranıbsa, həmin ölkə ilə hava alırlar, oradakı seçki prosesinin təsirində yatıb-dururlar... Onları da haradasa başa düşmək lazımdır, çünki məğlubiyyət yetim olur, ona heç kəs sahib çıxmır, amma bu da onlara haqq vermir. Biz bu gün Qarabağ, Azərbaycan naminə sona qədər bizimlə bir yol gedənlərin, bizə hər cür dəstək verənlərin yanında olmalıyıq. Bunun əksində dayananlar, sadəcə, vətən xainləridir..."

❑ Nigar HƏSƏNLİ,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 93 (8229) 31 may 2023



# İsxak Hersoq Bakıda: 11-ci prezidentin ilk səfəri, İran amili

## İki dost ölkənin rəhbərləri mühüm mesajlar verdilər

**Mayın 30-da İsrail Prezidenti İsxak Hersoq və onu müşayiət edən nümayəndə heyəti Bakıya iki günlük səfərə gəlib. Səfərin ilk günü Azərbaycan Prezidenti İlham Əliyevin İsxak Hersoqla geniş tərkibdə görüşü olub.**

**İlham Əliyev** görüşdə bildirib ki, artıq iki ölkə arasında ticarət, enerji, təhlükəsizlik kimi istiqamətlərində böyük işlər görülüb, lakin İsrail-Azərbaycan əlaqələrinin daha böyük potensialı var. Dövlət başçısı qeyd edib ki, iki ölkə birlikdə bir çox işlər görəcək: “Əminəm ki, səfər ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafına böyük təkan verəcək. Elə indicə cənab Prezidentlə ikitərəfli gündəliyimiz və regional məsələlərlə bağlı çox yaxşı müzakirə apardıq. Əminəm ki, nümayəndə heyətlərinin iştirakı ilə görüşdə, bu gün və sabah davam edəcək səfəriniz çərçivəsində təmaslarda geniş diapazonlu məsələlər müzakirə olunacaq. Biz səfərdən sonra müsbət dinamikanı görəcəyik. Çünki mən tamamilə əminəm, böyük potensial mövcuddur, baxmayaraq ki, biz ayrı-ayrı istiqamətlər, ticarət, enerji, təhlükəsizlik sahələri üzrə artıq çoxlu işlər görmüşük. Lakin hələ çoxlu işlər görülməlidir. Əlbəttə ki, biz Sizin Azərbaycana səfərinizi tarixi səfər hesab edirik”.

**İsrail Prezidenti isə deyib ki, hər iki xalq arasında böyük dostluq əlaqələri var**: “Burada olmaqdan şərəf və məmnunluq hissi duyuram. Biz buraya açıq ürəklə, millətlərimiz arasında böyük dostluqla gəlirik. Ən əsası odur ki, siz mərhum atanızı yetişdirən millətsiniz, sonra isə Siz onun yolunu davam etdirərək elə bir heyrətamiz ölkə yaratmısınız ki, bura bir çox məsələlərin mərkəzinə çevrilib. İsraillə Azərbaycan arasında tərəfdaşlıq Sizin qeyd etdiyiniz və bizim müzakirə etdiyimiz bir çox sahələrin də təməl nöqtəsidir. Düşünürəm ki, bu, bir çox səviyyələrdə xalqlarımıza mesaj göndərir. İlk növbədə, hesab edirəm ki, bu, elə bir mesaj göndərir ki, yəhudilər və müsəlmanlar birlikdə sülhə doğru addımlasalar, birgə açıq dialoq aparsalar, birlikdə dünyanın xeyrinə çalışsalar birlikdə möhtəşəm işlər görə bilərlər. İkincisi, bu, strateji münasibətdir, çünki biz sülh, rifah və inkişaf istiqamətlərində bütün regiona öz təsirimizi göstəririk. Buna görə çox sağ olun. Əlbəttə ki, cənab Prezident, mən qarşılıq göstərərək Sizi İsraildə qəbul etməyi səbirsizliklə gözləyirəm”.

İsxaq Hersoq Azərbaycan və İsrailin strateji əlaqələrinin sülh, firavanlıq və inkişaf istiqamətində bütün regiona təsir etdiyini vurğulayıb.

Prezidentlər mətbuata bəyanatla çıxış ediblər. İlham Əliyev bildirib ki, bu il İsraildə Azərbaycan səfirliyinin açılması əlbəttə ki, əlaqələri yüksək səviyyəyə qaldıracaq, eyni zamanda, daha yaxın qarşılıqlı fəaliyyət üçün daha çox fürsətlər yaradacaq. Dövlət başçısı qeyd edib ki, Azərbaycanla İsrail arasında ticarət dövriyyəsi 1,7 milyard ABŞ dollarından çoxdur və bu, diqqətçəkən miqdardır.

“Amma mən düşünürəm ki, qarşıdakı illərdə ticarət dövriyyəmizi şaxələndirməli olacağıq. Ümidvaram ki, planlaşdırdığımız və həyata keçirdiyimiz birgə layihələrimiz nəticəsində bizim daha balanslı ticarət dövriyyəmiz olacaq və bu, sadəcə, enerji faktorundan asılı olmayacaq, baxmayaraq ki, Azərbaycan İsrail üçün illərdir ki, etibarlı xam neft tədarükçüsü olmağa davam edir və bu enerji sahəsində yaxın əməkdaşlığı nümayiş etdirir”, - Prezident İlham Əliyev vurğulayıb.

**İlham Əliyev deyib ki, Azərbaycan və İsrail arasında kibertəhlükəsizlik sahəsində aktiv kommunikasiya başlayıb.** “Nisbətən yeni əməkdaşlıq etməyə başladığımız sahələrdən biri kibertəhlükəsizlik sahəsidir. Biz çox şadıq ki, indi kibertəhlükəsizlik sahəsində aktiv kommunikasiya başlayıb. Sirr deyil ki, bu gün kibertəhlükəsizlik hər bir ölkənin milli təhlükəsizliyinin vacib faktıdır. İsrail şirkətlərinin bu sahədəki böyük təcrübəsi bizim üçün faydalı olacaq. Bu gün müzakirələr zamanı biz həmçinin enerji sahəsində əməkdaşlığı necə genişləndirəcəyimiz məsələsini müzakirə etdik. Çünki biz investisiya layihələri, interkonnektorların yaradılması ilə əlaqəli layihələr, üçüncü ölkələrdə potensial əməkdaşlıq layihələri ilə bağlı böyük imkanlar görürük. Biz həmçinin suvarma və kənd təsərrüfatı sahəsində planlarımızı və artıq həyata keçirilənləri müzakirə etdik. Biz İsrailin bu sahədəki böyük nailiyyətləri barəsində bilirik”, - Prezident İlham Əliyev qeyd edib.

Prezident İlham Əliyev vurğulayıb ki, hədəflərə nail olunması və təhdidlərdən qorunulması baxımından gənc nəslin bu istiqamətdə təlimi və təhsili fundamental faktordur.

**İsxaq Hersoq isə bildirib ki, xalqlarımız arasında 30 ildən artıqdır güclü əlaqələr mövcuddur:** “İnanıram ki, nümayəndə heyəti ilə birgə hazırkı səfərim münasibətlərin daha da inkişaf etməsi üçün təkan nöqtəsi olacaq. Dostum, Azərbaycan Prezidenti İlham Əliyevə, İsrailin əsl dostuna öz iqamətgahında səmimi qarşılamaya görə təşəkkür edirəm. İsrail Azərbaycana mühüm strateji tərəfdaş və regional sabitliyin mənbəyi kimi baxır. Xalqlarımız arasındakı münasibətlər sülh və əməkdaşlıq yolunu seçən digər ölkələr üçün örnəkdir və müsəlmanlar və yəhudilər arasında dostluq münasibətlərinin nümunəsidir”.

İsrail Prezidenti Azərbaycan səfəri zamanı yəhudi icmasının üzvləri ilə əlaqə saxlamaq və müzakirələr aparacaq.

Səfər zamanı İsxak Hersoqu müşayiət edən səhiyyə və daxili işlər naziri Moşe Arbel fövqəladə hallara hazırlıq, həkim hazırlığı və rəqəmsal sağlamlıq sahəsində əməkdaşlığın artırılması yollarını araşdıracaq. Yada salaq ki, İ.Hersoq 2021-ci ilin mayında Knessetdəki səsvermə nəticəsində İsrailin 11-ci prezidenti seçilib. İ.Hersoq ilk dəfədir ki, Bakıya səfər edib, ondan bir müddət əvvəl bu ölkənin xarici işlər naziri Bakıda yüksək səviyyəli görüşlər keçirmişdi.

1991-ci ildə Azərbaycan müstəqilliyini elan edəndə İsrail onu tanıyan dövlətlərin önündə olub (1991-ci il dekabrın 25-də). İsrailin o vaxt da baş naziri olan Benyamin Netanyahunun Asiya turnesindən sonra 1997-ci ildə Azərbaycana səfəri yüksək səviyyəli ilk görüş olması baxımından mühüm əhəmiyyət kəsb edib. Netanyahunun bu səfərindən sonra 2009-cu ildə o vaxtkı baş nazir Şimon Peresin Bakıya səfəri baş tutub. 2016-cı ildə baş nazir kimi Netanyahu yenidən Bakıda olub.

Bu ilin martında Azərbaycanın İsraildə səfirliyi açıldıqdan sonra əməkdaşlığın yeni mərhələsinin əsası qoyulub. Azərbaycanla İsrail arasında yüksək səviyyəli münasibətlərin bir tərəfdən geosiyasi, digər tərəfdən isə iqtisadi əhəmiyyəti var.

Dağlıq Qarabağ məsələsində İsrail Ermənistanla münasibətlərdə balansı qoruyub saxlamaqla, ümumilikdə Azərbaycana dəstək verib. Təsadüfi deyil ki, 44 günlük müharibədən sonrakı şənliklərdə Azərbaycan və Türkiyə bayraqlarının yanında İsrail bayrağı da dalğalanıb. İkili əlaqələrin inkişafına təsir edən əsas faktorlardan biri də yəhudilərin Azərbaycanda öz vətənlərindən də təhlükəsiz və mehriban yaşamasıdır.

İsrail dövlətinin rəhbərliyinin Azərbaycana səfəri həmişə İranda ciddi narazılıq yaradıb. Məsələn, İsrail Prezidenti Şimon Peresin 2009-cu ilin iyununda Bakıya səfəri öncəsi İran Silahlı Qüvvələrinin o zamankı Baş Qərargah rəisi İran Azərbaycan münasibətlərində problem yaranacağını bildirmişdi. Xüsusilə son zamanlar Azərbaycan-İsrail münasibətlərinin strateji tərəfdaşlıq kontekstinə keçməsi başda İran olmaqla, bir çox ölkələri narahat edir. Rəsmi Tehran mümkündür ki, bu səfərdən də narahatdır. Amma bu gün İranda yaxşı başa düşürlər ki, İsrail-Azərbaycan münasibətləri qarşısı alınmaz bir səviyyəyə çatıb. Düzdür, bu günə qədər İran tərəfi münasibətlərin inkişaf etməməsi üçün çox çalışıb, hətta bəzən buna nail da olub. Lakin bu gün vəziyyət tamamilə fərqlidir. Azərbaycan İsraildə səfirlik açdıqdan sonra İranın bu istiqamətdə atacağı istənilən addım əbəsdir. Səfərin əhəmiyyəti nələrdir? İranın mümkün reaksiyası necə ola bilər?

**Sabiq maliyyə naziri, iqtisadçı professor Fikrət Yusifov “Yeni Müsavat”a bildirdi ki, Azərbaycan-İsrail münasibətləri artıq iki dövlətin böyük bir dostluğuna çevrilib:** “Biz İsrailə və İsrail də bizə yalnız müttəfiq kimi baxmırıq. İki dövlət bir-birinin simasında dayanıqlı və etibarlı bir dostu görürlər. Bu dostluğun ən gözəl anları 44 günlük İkinci Qarabağ savaşında, İsrail rəhbərliyinin "biz dostlarımızla düşmənçilik edən bir dövlətə silah satmarıq" deməsi ilə yaşandı və bu sözlər çətin gündə sınaqdan çıxan əsl dostluğun bir möhürünə çevrildi.

İran bu dostluqdan həmişə əndişəli olub. Bir mollanın ağlı ilə, dünyanı idarə edəcək qüdrətdə olan yəhudi ağlını Azərbaycan dövlətinin bir tərəziyə qoyması mümkün deyil. İranın fars hakimiyyəti iki yüz ildir ki, on milyonlarla Azərbaycan türkünün haqqını ayaqları altına atıb, tapdalamaqla məşğuldur. Soydaşlarımıza qarşı etdikləri bu haqsızlıqların müqabilində bu rejimin sivil dünyanın bir parçasına çevrilmiş Azərbaycandan gerçək dostluq, qardaşlıq istəməyə haqqı varmı? Yoxdur! Azərbaycan belə bir dövlətin dostu ola bilməz. Ən yaxşı halda, bu rejimlə qonşuluq xatirinə müəyyən sahələrdə əməkdaşlıq mümkündür ki, biz də bunu edirik. Tehrandakı səfirliyimizdə dövlət səviyyəsində terror aktı törədib, sonradan terroristi azadlığa buraxaraq, ondan dövlət telekanalları vasitəsilə müsahibə alıb, bütün dünyaya nümayiş etdirən bir molla rejiminə hansı münasibəti bəsləməliyik ki? Otuz ilə yaxın torpaqlarımızı işğal altında saxlaması səbəbindən Azərbaycan və Türkiyə tərəfindən izolə edilmiş Ermənistana, Zəngəzur dəhlizi vasitəsilə nəfəslik verib, onu yaşadan İran molla rejimi deyildimi? Bu gün gizli yollarla Qarabağda ermənilərə hərbi yardım edən, Azərbaycanın haqq işinə qarşı min bir oyun çıxaran da bu rejimdir. Ona görə də Azərbaycanla İsrailin dostluq münasibətlərinin dərinləşməsinə, İsrail Prezidentinin Bakıya səfərinə İranın narazılıq etməyə nə hüququ var, nə də haqqı var. İran rejimi şübhəsiz ki, narazı qalacaq və narazılığını ola bilər hansısa yeni təxribatlarla, Azərbaycana qarşı yeni hücum kampaniyası ilə ortaya qoyacaq. Həmçinin Ermənistana ənənəvi dəstəyini artıra bilər. Lakin bütün bunlar Azərbaycanı İsraillə dostluq münasibətlərindən daşındıra bilməz. Azərbaycan-İsrail dostluğu səmimidir, etibarlıdır, dayanqlıdır. İsrail Prezidentinin Azərbaycana səfəri heç şübhəsiz iki ölkə arasında əməkdaşlığı və dostluğu daha da möhkəmləndirəcək".

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

**Son günlər narkotikə görə saxlanılan taksi sürücülərinin sayı artıb. Hətta spirtli içki qəbul edərək sükan arxasına əyləşənlərə də rast gəlinib. Taksi sahəsində hökm sürən özbaşınalığın aradan qaldırılması üçün vahid nəzarət sisteminin yaradılması irəli sürülüb.**

# Hökumət taksi xidmətindəki xaosu önləyə bilmir

## Bakıda taksi sürürlər, məlumat bazaları isə xaricdədir; ekspertlər "taksi fəaliyyətinə məhdudiyyət qoyula bilməz, amma nəzarəti dövlət etməlidir" deyirlər

Hazırda ölkə ərazisində minik avtomobilləri ilə taksi xidməti göstərən, eyni zamanda taksi xidmətlərinin təşkili, sifarişlərin idarə olunmasını həyata keçirən yerli və xarici şirkətlər mövcuddur. Əksər şirkətlərin məlumat bazası xarici ölkələrdə yerləşir və bu da "Fərdi məlumatlar haqqında" Qanuna ziddir. Qanuna əsasən, ölkəmizdə fərdi məlumatların informasiya sistemləri dövlət qeydiyyatından keçməlidir. Yalnız bundan sonra fərdi məlumatların toplanılmasına və işlənilməsinə icazə verilir.

Bir neçə gün əvvəl Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyində Azərbaycanda fəaliyyət göstərən taksi şirkətlərinin nümayəndələri ilə görüş keçirilib. Görüşdə bildirilib ki, ölkə ərazisində sərnişindaşıma sisteminin təşkilini təkmilləşdirmək məqsədilə taksi xidməti kompleks şəkildə tədqiq olunub. Belə ki, daha səmərəli idarəetmə sistemi yaratmaqla taksi xidmətinin keyfiyyətinin yüksəldilməsi imkanları araşdırılıb. Görüş iştirakçılarına taksi fəaliyyətini tənzimləyən və taksi minik avtomobillərinə dair tələbləri müəyyən edən Nazirlər Kabinetinin 2019-cu il 4 mart tarixli 73 nömrəli Qərarından irəli gələn məsələlər ətraflı izah olunub. Qeyd edilib ki, sərnişindaşımanı yerinə yetirən taksi nəqliyyat vasitələri milli və beynəlxalq standartlara və normativlərə uyğun texniki təchizata və ekoloji standartlara uyğun olmalıdır. Tələblərə əsasən daşımalarda istifadə edilən taksi minik avtomobilləri müvafiq rəngdə olmalı, nəqliyyat vasitəsinin salonunda sürücü və daşınma tarifi haqqında məlumat lövhələri yerləşdirilməlidir. Taksi minik avtomobillərinin sürücüləri etik davranış qaydalarına və avtomobil nəqliyyatı ilə sərnişin daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair xüsusi hazırlıq keçməlidirlər. Taksi fəaliyyətinə cəlb oluna biləcək şirkət və nəqliyyat vasitəsinə qarşı tələblər izah edilərkən bildirilib ki, sərnişin daşımaları müvafiq icazəsi olan şəxslər tərəfindən yerinə yetirilə bilər. İcazə "Lisenziyalar və icazələr haqqında" Qanuna əsasən, taksi minik avtomobilləri üçün "Fərqlənmə nişanı" alınmalıdır. "Fərqlənmə nişanı"nı almaq üçün onlayn qaydada "e-fn.ayna.gov.az" ünvanına, həmçinin Bakı, Yevlax və Xaçmaz KOB evlərində AYNA-nın xidmət mərkəzlərinə müraciət etmək mümkündür.

Ekspertlər hesab edir ki, dünya praktikasında taksi sürücülərinin iş saatı 8-13 saatdır. Lakin Bakıda sürücülər 20 saat taksi kimi fəaliyyət göstərirlər. Azərbaycanda taksi fəaliyyəti ilə bağlı xeyli qanun olsa da problem qanunvericiliyin köhnə olmasındadır. Bu qanunlar yalnız klassik taksi fəaliyyətini tənzimləyə bilir. Bu səbəbdən də yeni nəzarət sisteminin yaradılmasına ehtiyac var.




**Nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynov mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, hazırda ən böyük problem taksi aqreqatorları ("8555","0606","UBER", "BOLT", "Maxim") ilə bağlı qanunvericiliyin olmamasıdır**: "Ona görə də onlar istənilən adamı taksi xidmətinə qoşa bilərlər. Hətta avtomobil xidmətinə uyğun olmayan adamlarda heç bir məsuliyyət yoxdur. Bugünkü qanunla heç kim aqreqatora nə isə deyə bilməz. Burada birinci növbədə hüquqi tənzimləmə problemi var. Qanunvericiliyimiz aqreqatorların fəaliyyətini tənzimləmir, ümumiyyətlə, aqreqator anlayışını vermir. Aqreqatorla sürücü arasında münasibətə dair bir kəlmə anlayış belə yoxdur. UBER, BOLT kimi aqreqatorlara insanlar taksi şirkətləri deyir, amma bu doğru deyil. Onlar internet üzərindən tənzimlənir və çağrı mərkəzləri sayılır, taksi sürücüsü ilə müştəri arasında əlaqə yaradırlar. Aqreqatorların hüquqları, vəzifələri, öhdəlikləri, iş şərtləri müəyyən olunmalıdır. Eyni zamanda bütün bunlara nəzarət olmalıdır. Çoxları iki məsələni fərqləndirə bilmirlər. Bəli, taksi xidmətləri çox olmalıdır. Azad bazardır, kim bacarırsa, bu işlə məşğul olmalıdır, buna heç kim məhdudiyyət qoya bilməz. Amma nəzarəti dövlət həyata keçirməlidir. Baxın, Azərbaycanda bir neçə milyon vergi ödəyicisi var. Onların hamısına vergi nəzarəti var, bunu da Vergi Xidməti həyata keçirir. Bir xidmət milyonlarla vergi ödəyicisinə nəzarət edir. Taksi fəaliyyəti də belə olmalıdır. Bu fəaliyyəti həyata keçirmək üçün də AYNA-nın tabeliyində nəzarət sistemi olmalıdır, bu da qanunvericilikdə təsbit olunmalıdır. Nəzarət sistemi elə qurulmalıdır ki, bütün aqreqatorlar ora inteqrasiya olunsun. Onların platforması ilə, kimlə işləyirlər, həmin şəxs qanunvericilikdə göstərilən qaydalara uyğundurmu, avtomobili uyğundurmu? Həmin taksi sürücüsü neçə saat işləyə bilir, hansı şərtlər əsasında işləyə bilir. Bütün bunlara nəzarət olmalıdır. Gün ərzində 8 saatdan artıq işləyənləri, tibbi müayinədən keçməyib, sağlamlıq arayışı olmayanları, avtomobili tələbələrə cavab verməyən sürücüləri avtomobil xidmətinə qoşmamalıdırlar".

**Nəqliyyat üzrə ekspert Elməddin Muradlı da hesab edir ki, bu sahəyə nəzarət gücləndirilməlidir:** "İmkanlı fərdi sahibkarlar var ki, 10-15 "Prius" maşınlarını ölkəyə gətirib, sürücülərə verir, heç maraqlanmır ki, o sürücü narkomandır, ya məhkumluğu olub-olmayıb. Sadəcə olaraq, sürücülük vəsiqəsi varsa, gündəlik tələbələr yerinə yetirirsə bəs edir. Bu, artıq sürücülərin istismar olunmasıdır. Dünya təcrübəsində taksi sürücülərinin iş saatı 8-13 saat götürülür, bizdə elə taksi sürücüsü var ki, dayanmadan 18-20 saat işləyir. Vəziyyət o həddə çatıb ki, paytaxtda baş verən yol-nəqliyyat hadisələrinin 10-dan 7-si taksi sürücülərinin iştirakı ilədir".

**Ekspert əlavə edib ki, taksi fəaliyyətində qaydalar saat dəqiqliyi ilə işləməlidir:** "Taksi sürücüsü fərqlənmə nişanı almalıdır. VÖEN açdırmalıdır. Vergi ödəyicisi kimi qeydiyyata durmalıdır. Vaxtlı-vaxtında vergi və digər sosial ödənişlərini ödəməlidir".

**Nəqliyyat eksperti Eldəniz Cəfərov isə düşünür ki, bizim bu sahədə yetərincə qanunvericiliyimiz var:** "Qurum var, taksi fəaliyyətini tənzimləyən qanunvericilik bazamız da var. Bu problemlərin yaranma səbəbləri isə vaxtilə məsələyə ciddi yanaşılmamasıdır. Həmçinin Azərbaycanda fəaliyyət göstərən taksi operator xidmətləri Azərbaycan qanunlarına hörmət etmirlər, Nazirlər Kabinetinin taksi fəaliyyəti ilə bağlı reqlamentini saymırlar. Sərnişin olan istehlakçıların hüquqlarını müdafiə edən qanun da mövcuddur. Taksi fəaliyyətini tənzimləyən iki qurum da var, bu, AYNA və Bakı Nəqliyyat Agentliyidir. Taksi fəaliyyətinin özünə, istismar olunan avtomobillərə, taksi sürücülərinə belə reqlament mövcuddur. Sadəcə, bunları doğru-dürüst tənzimləmək lazımdır. Doğru-dürüst tənzimlənməməyinə görə bu sahədə özbaşınalıq baş alıb gedir. Buna baxmayaraq, ötən həftədən etibarən bu istəyin də yarandığını az-çox müşahidə edirik. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (RİNN) Azərbaycan qanunlarını pozan taksi şirkətlərinə xəbərdarlıq ünvanlayıb. Ümid edirik ki, taksi operator şirkətləri, taksi şirkətləri və fərdi qaydada taksi fəaliyyəti ilə məşğul olan şəxslər qaydalara əməl edəcəklər".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

## Sığorta şirkətləri avtomobil sığortasını hansı metodla hesablayır?

**Azərbaycanda avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta haqqının yeni qayda ilə hesablanmasına 2022-ci il oktyabrın 1-dən başlanıb.**

Qaydalara edilən dəyişikliklərə əsasən, sığorta haqqı 4 əsas amil nəzərə alınaraq müəyyənləşir. Baza sığorta haqqı, yəni 50 manat dəyişdirilmir və olduğu kimi qalır. Lakin risk səviyyəsinə görə baza sığorta haqqına yeni əmsallar tətbiq edilir. Hətta sürücünün yaşı və sürücülük təcrübəsini nəzərə almaq kimi lüzumsuz amillər nəzərə alınır. Ona görə də baza sığorta tarifinə yaş və sürücülük təcrübəsinə görə 1,35-1,05 intervalında əmsallar tətbiq edilir.

Digər risk amili nəqliyyatın intensivliyi ilə bağlıdır. Bununla izah olunur ki, nəqliyyat vasitələrinin daha sıx, intensiv olduğu yerlərdə yol-nəqliyyat hadisələrinin tezliyi daha yüksək olur. Ona görə də Bakı şəhərinə 1,1, Sumqayıt və Abşerona 1,05, digər bölgələrə isə 0,95 əmsalı tətbiq edilir.

Üçüncü amil nəqliyyat vasitəsinin istismar müddətinə bağlıdır. Daha köhnə nəqliyyat vasitələrinin yol-nəqliyyat hadisə tezliyi yüksək olduğundan istismar müddəti 10 ili aşan nəqliyyat vasitələrinə 1,05, 20 ili aşan nəqliyyat vasitələrinə 1,1 əmsalı, istismar müddəti 10 ildən az olan nəqliyyat vasitələri üçün isə 1 əmsalı tətbiq olunur.

Dördüncü amil nəqliyyat vasitəsini idarə edənlərin sayına bağlı olaraq tətbiq olunan əmsaldır. Əgər nəqliyyat vasitəsini iki və daha artıq şəxs idarə etmək hüququna malikdirsə o zaman baza sığorta haqqına 1,15 əmsalı tətbiq edilir.

**Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirib ki, kasqo sığortası istisna olmaqla nəqliyyat vasitələrinə dəyən ziyanın ödənilməsi ilə bağlı çoxsaylı problemlər var:** "Birinci nəqliyyat vasitəsini əzən, ikinci əzənə sığorta ödəyir. Ödəniş məbləğləri ilə bağlı ciddi problemlər yaşanır. Onlar artıq bazar qaydaları ilə öz işlərini idarə etmək metoduna keçiblər. Bazarlarda hər altı aydan bir "bazarkomlar" heç bir iqtisadi əsas göstərmədən insanların yer pulunu qaldırır. Təxminən sığorta bazarında belə bir durum yaranıb. Mən düşünürəm ki, dövlətin buna çox ciddi reaksiya verməsi lazımdır".

YENİ MÜSAVAT
N 93 (8229) 31 may 2023

**Mayın 30-da Milli Məclisin növbəti iclası keçirildi. Spiker Sahibə Qafarova giriş nitqində mayın 28-də Türkiyədə keçirilmiş prezident seçkilərində Rəcəb Tayyib Ərdoğan inamlı qələbəsindən danışdı. "Əsl demokratiya şəraitində əldə edilmiş bu qələbə bütün Azərbaycan xalqını ürəkdən sevindirib", - deyə sədr bildirib. Deputatlar Ərdoğanın qələbəsi ilə bağlı deyilənlərə alqışlarla reaksiya verdilər.**

# Büdcə təşkilatlarında işləmək müddəti 70 yaşa qaldırıla bilər

## Vergi Məcəlləsi ilə bağlı müzakirələr oldu; deputat: "Vətəndaş gedib Gürcüstandan ucuz avtomobil alıb gətirir və aldığı məbləğ qədər, yaxud daha çox rüsum ödəyir"



**Tural Gəncəliyev** çıxışında Azərbaycan Xalq Cümhuriyyətinin elan olunduğu gündə Prezident İlham Əliyevin Laçın sakinlərinə mənzillərinin açarlarını təqdim etməsini, mühüm mesajlar səsləndirməsini xüsusi qeyd etdi. Bildirdi ki, bəzi Avropa təşkilatları Azərbaycanın Laçın yolunda sərhəd-nəzarət məntəqəsi qurmasına qarşı çıxırlar, amma bu iddiaların heç bir əsası yoxdur. "Bütün dünya ictimaiyyəti qəbul edir ki, təhlükəsizlik sərhədlərdən başlayır. Avropa İttifaqını qorumaqdan 2005-ci ildən ötrü xüsusi agentlik yaradılıb və ildən-ilə öz büdcəsini artırır" - deputat əlavə etdi. Ardınca bildirdi ki, Azərbaycanı ittiham edən təşkilatlar ilk öncə öz ölkələrinin siyasətinə diqqət etsinlər.

**Musa Qasımlı** bildirdi ki, dünyanın 20 ölkəsindən biri olan qardaş Türkiyədə keçirilən prezident seçkilərinin ikinci turunda türk milləti təkcə dövlət başçısını seçmədi, eyni zamanda dünyaya demokratiya dərsi keçdi, türk dövlətləri ilə əməkdaşlığın və dövlətləri olmayan türk topluluqları ilə əlaqələrin, yürüdülən müstəqil xarici siyasətin davam etdirilməsinə səs verərək, Türkiyəni geriyə aparmaq istəyən xarici qüvvələri yerində oturtdu.

**Kamal Cəfərov** da dedi ki, 28 may seçkiləri nəticəsində PKK-FETÖ terror təşkilatları məğlub olub.

**Komitə sədri Musa Quliyev bildirdi ki, bir neçə il bundan qabaq Əmək Məcəlləsinə edilən dəyişikliyə görə dövlət büdcəsindən maliyyələşən təşkilatlarda işləyənlərin son yaş həddi 65 yaş müəyyən edilib:** "Yalnız cüzi istisnalarla ildə bir dəfə uzadılmaqla işçi 70 yaşa çatanadək işləyə bilər. Son zamanlar isə xüsusilə təhsil, səhiyyə və TƏBİB-ə aid təşkilatlarda yaş məhdudiyyətinin tətbiqi kəskin, sərt və kütləvi xarakter almışdır. Sanki bu insanlar uzun illər həmin peşənin mütəxəssisi olmayıblar, heç bir bilik və bacarığa malik deyillər kimi davranaraq onları elə ad günündəcə işdən azad edirlər. Təşkilatda olan alternativ vakant iş yerləri də onlara təklif olunmur. Bu isə təhsil və tibb işçiləri arasında ciddi narazılıq və sosial gərginlik yaradır".

**Komitə sədri təklif etdi ki, Əmək Məcəlləsində dəyişiklik edilsin və dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışmanın son həddi 65 yaşdan 70 yaşa qaldırılsın:** "Əgər bu təklifi məclis dəstəkləyərsə, hökumət də etiraz etmədiyi halda qanun layihəsini hazırlayıb payız sessiyasında müzakirənizə təqdim edə bilərik".

**Deputat Fazil Mustafa** çıxışında öncə 28 martda şəxsinə qarşı törədilən terror aktından sonra məsələyə dərhal real reaksiya verən ölkə Prezidenti İlham Əliyevə, birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürünü bildirdi. F.Mustafa dövlət təhlükəsizlik qurumlarının fədakar əməkdaşlarının fəaliyyətini də xüsusi qeyd etdi.

**Daha sonra deputat Laçına qayıdışdan danışdı, bildirdi ki, bu, çox böyük tarixi hadisədir.** "Bu fakt bir daha təsdiqlədi ki, ölkə Prezidenti hansı hədəflər qoyursa, müvafiq qurumlar bu hədəfləri addım-addım gerçəkləşdirir" - F.Mustafa söylədi. Ardınca təklif etdi ki, ayrı-ayrı dövlət qurumları orada yaşayan ermənilərin Azərbaycana inteqrasiyası üçün müəyyən mexanizmləri təqdim edək. Bələdiyyələr, pensiya təminatı və sairə ilə bağlı təklifləri ünvanlamağı zəruri sayan millət vəkilinin sözlərinə görə, ermənilər təklif olunan bu mexanizmləri qəbul etməyə bilərlər. Amma bütün danışıqlarda Azərbaycan bunu öz avantajı kimi təqdim etməlidir.

**Milli Məclisin sədr müavini Fəzail İbrahimli Azərbaycanda və qardaş Türkiyədə baş verən üç mühüm hadisəyə diqqət çəkdi:** "28 may tarixində Türkiyədə keçirilən seçkilər Türk dünyası, Türk Dövlətləri Təklilatı, eləcə də Azərbaycan üçün yüksək əhəmiyyətə malikdir". F.İbrahimli öncə Heydər Əliyevin 100 illiyi ilə bağlı Milli Məclisin mayın 16-da keçirilən xüsusi iclasından bəhs edib. Deputat Ulu Öndərin 100 illiyi ilə bağlı parlamentdə yüksək səviyyədə anılmasını xüsusi vurğu ilə qeyd edərək, onun ruhunun şad olduğunu deyib: "2023-cü ilin Heydər Əliyev ili elan edilməsi ilə əlaqədar olaraq 37 ölkənin nümayəndə heyətinin iştirakçısı olduğu parlamentdə belə bir beynəlxalq tədbirin keçirilməsi tarix üçün mühüm əhəmiyyətə malikdir". Vitse-spiker ardınca Perzidentin 28 mayda Laçına səfəri zamanı dünyaya verdiyi mesajlara toxunub. Bildirib ki, Prezident dünyaya "Ey dünya, sən Azərbaycana qarşı yönələn siyasətini apar, biz də öz addımlarımız atırıq"-mesajı verib. F.İbrahimli 28 may tarixində Türkiyə Cümhuriyyətində keçirilən seçkiləri Türk dünyası, Türk Dövlətləri Təşkilatı, eləcə də Azərbaycan üçün mühüm əhəmiyyətini qeyd edib, seçkinin nəticələrini xüsusilə önə çəkib. Spikerin müavini Türkiyədə seçkiqabağı kampaniyada Azərbaycana qarşı edilən çıxışların əsnasında bu seçkini Azərbaycan üçün də uğurlu hesab edib.

**İclasda "Kosmik fəaliyyət haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılıb. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili qanun layihəsi barədə ətraflı məlumat verib. T.Mirkişili bildirib ki, Azərbaycanın üç peyk layihəsinə təxminən 700 milyon manat investisiya yatırılıb:** "85 faizi beynəlxalq banklardan cəlb edilən kreditlər hesabına formalaşıb. Gəlirlərinin 90 faizi xarici bazarlardan formalaşır. 2013-cü ildən bu günə "Azərkosmos" 515 milyon manat gəlir əldə edib. Bunun 90 faizi xarici bazarlardan olub. Yəni biz dollar və avro ilə gəlir əldə edirik və ölkəmizə valyuta axınına dəstək veririk. Peyklərin fəaliyyət müddətləri ərəfəsində ölkəmizə 1.5 milyard manata qədər gəlir gətirəcəyi gözlənilir".

**Komitə sədri bildirdi ki, Azərbaycan peyklərinin 42 ölkədə 182 müştərisi var:** "Bu gün peyklərimiz tam şəkildə yerli mütəxəssislər tərəfindən idarə olunur. Hazırda kosmosda 8000-ə yaxın sputnik var, onlar naviqasiya, hava proqnozları, təbiət hadisələri kimi mühüm sahələrdə cəmiyyətə xidmət edirlər. Qeyd etdiyim kimi, Kosmik fəaliyyət dövlət hüquqi şəxsi olan "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)" tərəfindən həyata keçirilir. "Azərkosmos"un kosmik fəaliyyətinin nizamlanması üçün korporativ idarəetmə mexanizmləri kifayət etdiyi halda kosmik sahədə qeyri-dövlət subyektlərinin fəaliyyətinə hüquqi zəmin yaradılması üçün sahəvi münasibətləri tənzimləyən qanunun qəbul olunmasına obyektiv zərurət yaranıb".

**Razi Nurullayev çıxışında bildirib ki, Vergi Məcəlləsinə ölkədə istehsal olunan avtomobillərin, minatəmizləmə əməliyyatlarında istifadə olunan avadanlıqların və bənzər texnologiyaların əlavə dəyər vergisindən azad olunmasını ehtiva edən dəyişiklikləri dəstəkləyir:** "Ümid edirəm ki, bu dəyişiklik ölkədə avtomobil istehsalına töhfə vermiş olacaq. Açığını deyək ki, avtomobillərə tətbiq edilən gömrük yükü çox ağırdır. Vətəndaş gedib Gürcüstandan ucuz avtomobil alıb gətirir və aldığı məbləğ qədər, yaxud daha çox rüsum ödəyir. Deyək ki, avtomobili alıb 10 min dollara, ölkədə ya on min, ya da daha çox rüsum ödəməli olur. Bu tarifi doğru hesab etmirəm. Razıyam ki, ölkəmizdə daha çox keyfiyyətli avtomobil istehsal olunsun. Amma bir çox məsələlər kağız üzərində qalır. Gəlin görək istehsal, tikinti, idxal və ixrac hamı üçünmü bərabər şərait yaradılır? Xeyr, yaradılmır. Müxtəlif instansiyalarda vətəndaşların başına min oyun gətirirlər. Qanunlarımız superdir, biz çox gözəl qanunlar qəbul edirik, amma bizdən asılı olmayan səbəblərdən qanunlar buradan çıxandan sonra aidiyyəti qurumlar tərəfindən öz kefinə uyğun yerinə yetirilir. Bu, yolverilməzdir və əməlli-başlı hiddət doğurur".

**Qüdrət Həsənquliyev də layihə ilə bağlı etirazlarını bildirib:** "Ayrılıqda götürülmüş bu sahə üçün bu cür güzəştin nəzərdə tutulmasını doğru hesab eləmirəm". **Q.Həsənquliyev bildirdi ki, müdafiə sənayesində hansısa məhsulların istehsalına görə belə güzəştlər nəzərdə tutularsa, bu, başadüşülən olar:** "Əlbəttə, mən istərdim ki, biz Azərbaycanda avtomobilləri yığmayaq, həqiqətən də avtomobil istehsal edək. Ona görə də mən vaxtilə də təklif etmişdim ki, Naxçıvan Muxtar Respublikasını minik avtomobilləri, Gəncəni isə yük və kənd təsərrüfatında istehsal olunan avtomobil və traktor və mexanizmlər istehsal edən bir mərkəzə çevirmək olar. Amma bunun üçün dünyanın inkişaf etmiş ölkələri ilə müqavilələr bağlamaq lazım idi. Amma biz Neftçalada İranla birlikdə bir müəssisə açdıq. O vaxt da mən söylədim ki, axı İranda bu sahə inkişaf etməyib. Onun istehsal etdiyi avtomobillərin keyfiyyəti olduqca aşağıdır. Bəzi dövlət müəssisələrini məcbur edirlər ki, oradan avtomobil alsınlar. Onlar da alıb gətirirlər və qısa bir müddətdən sonra həmin avtomobillər sıradan çıxır. Beləliklə də dövlət vəsaiti səmərəsiz istifadə edilmiş olur".

**❑ Elşad PAŞASOY, "Yeni Müsavat"**

# Ərdoğanın 17-cı qələbəsi və məğlubedilməzliyinin sirri

## Türkiyə Prezidentinin uğurlarını şərtləndirən cəhət onun qətiyyətli siyasəti və iradəsidir




**Rəcəb Tayyib Ərdoğan Türkiyədə növbəti 5 ildə hakimiyyətdə qalmaq üçün xalqdan dəstək aldı. Bu, Ərdoğanın və partiyasının 2002-ci ildən bəri qatıldığı seçkidə qazandığı 17-cı qələbə idi. O, daha öncə Türkiyədə yerli, ümumi, referendum və prezident seçkilərində də qalib gəlib. Son prezident və parlament seçkiləri ərəfəsi Qərb mediasından basqılara, xüsusilə iqtisadi vəziyyətin çətinliyinə, zəlzələnin yaratdığı əlavə problemlərə baxmayaraq xalq Ərdoğana etimad göstərdi.**

Ərdoğanın 21 ildir iqtidarda qala bilməsinin səbəbləri ilə bağlı ən müxtəlif mövqelər səslənir. Bəs Azərbaycanda Ərdoğanın hakimiyyətdə qalmasının sirri haqda nə düşünürlər?

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı** hesab edir ki, Ərdoğan 2001-ci ildə yaratmış olduğu partiya ilə addım-addım bugünkü səviyyəyə qalxa bilib: "Türkiyənin bu günü ilə 2002-ci ildən əvvəlki illərini bütün mənalarda müqayisə etdikdə fərq açıq şəkildə göz önündədir. Həmin zaman kəsiyində Türkiyə Qərbdən, daha çox da Amerikadan asılı vəziyyətdə idi. Necə deyərlər, ABŞ-ın "qapazı" Türkiyənin başı üzərində idi. Qardaş ölkə müstəqil siyasət apara bilmirdi. Hətta bir az önə getsək, Kəlbəcərdə işğal zamanı qadınları, uşaqları, yaşlıları erməni vandalizmindən xilas etmək üçün 2 helikopter verə bilməyən Türkiyə 2020-ci ildəki Vətən müharibəsi zamanı özünün bütün imkanları ilə, həm də "F-16"ları Azərbaycanda saxlamaqla xalqımıza qardaş münasibətlərini ifadə etməyi bacardı. Ərdoğanın ən böyük uğurlarını şərtləndirən cəhət onun qətiyyətli siyasəti, iradəsi, bu iradəyə söykənən Türkiyənin müstəqil bir dövlət kimi təkcə regionda deyil, beynəlxalq aləmdə söz sahibi etmək qabiliyyətinin olmasıdır. Ərdoğanın atmış olduğu addımların əksər türk vətəndaşı tərəfindən müdafiə edilməsi onun bir lider kimi ən böyük üstünlüklərindən biridir. Bu dayaq, bu sosial baza ötüb keçən zaman kəsiyində azalmır, əksinə, daha da genişlənir. Genişləndikcə həm də möhkəmlənir. Ərdoğan özü söylədi ki, bu seçkilərdə Türkiyə uddu. Bu, tamamilə sərrast ifadədir. Seçiciləri udan Ərdoğan və onun komandası oldu. Qazanan, deyildiyi kimi, təkcə Türkiyə deyil, eyni zamanda bütün Türk dünyası oldu. Növbəti 5 ildə tamamilə əminəm ki, Türk Dövlətləri Təşkilatı öz inkişafının yeni və yüksələn mərhələsinə çatacaq, daha da möhkəmlənən birliyə çevriləcək. Artıq bütün dünya, Amerika başda olmaqla, Qərb bu qələbənin vermiş olduğu şokdan ayılaraq Ərdoğanla bərabər tərəfdaş, bərabərhüquqlu dövlət başçısı kimi əməkdaşlıqlarına yenidən baxacaqlar. Bu, Ərdoğana göndərilən təbriklərdə özünü göstərməkdədir. Ərdoğana yenidən etimad göstərilməsi təbii ki, Azərbaycanın maraqları ilə tam şəkildə üst-üstə düşür. Hər kəsə bəllidir ki, bu seçkilər zamanı ən çox narahatlıq keçirən ölkə Azərbaycan idi. Çünki Ərdoğanın hakimiyyəti dövründə, xüsusilə son illərdə Azərbaycanla münasibətlər ən yüksək səviyyədə quruldu. Ərdoğanın torpaqlarımızın işğaldan azad edilməsinə göstərmiş olduğu birmənalı mövqe Azərbaycanın ermənilər və onu himayə edənlər üzərində qələbəsini şərtləndirən mühüm amillərdən biri oldu. Qarşıdakı 5 ildə vaxtilə Şuşada imzalanmış qardaşlıq münasibətlərinin bütün sahələrini özündə ehtiva edən Şuşa Bəyannaməsi və onun müddəaları bütün mənalarda inkişaf etdiriləcək. Ərdoğanın qələbəsi ilə yeni bir era başlandı. Bütün dünya Ərdoğanın yenilməz, təkrarsız bir lider olduğunu gördü, dərk etdi və qəbullandı. İnşallah, biz qarşıdakı illərdə Ərdoğanın yeni-yeni uğurlarının şahidi olacağıq".

**Deputat Bəhruz Məhərrəmov dedi ki, Qərb dünyası açıq formada anti-Ərdoğan kampaniyası apardı:** "Türkiyədə yenidən Qərbdən asılı marionet bir rejim qurmaq, Türkiyənin artan güc və imkanları qarşısında birdəfəlik sədd çəkmək istəyirdi. Bir sözlə, bu seçkilər Türkiyə üçün ikinci Çanaqqala savaşı idi və bir əsr sonra bu savaşda yenə də milli iradə qalib gəldi. Müdrik türk xalqı yenidən "Ərdoğan" deməklə parçalanmanın, potensial vətəndaş müharibəsinin qarşısını aldı, Türkiyəni marionet dövlətə çevrilməkdən qurtardı. Türkiyə "Ərdoğan" deməklə müstəqillik, suverenliklə bərabər bölgənin təhlükəsizliyinə səs verdi.

Eyni zamanda bu seçkilər həm də demokratiyanın təntənəsi hesab olunmalıdır. Ərdoğana qarşı "demokratik dəyərlər" adı altında səlib yürüşü təşkil edən Qərb dünyasına ən yaxşı cavab məhz 2 turlu azad seçki oldu. Ərdoğan türk düşmənlərini məhz demokratik dəyərlər ilə yerində oturdub, Qərbə seçki dərsi keçdi.

Heç şübhəsiz ki, bu seçkilər Azərbaycan üçün də mühüm önəmə malik idi. Çünki Türkiyə bizim ən yaxın müttəfiqimizdir və Ərdoğanın hakimiyyətdən getməsi arzuolunmaz situasiyalara səbəb ola bilərdi. Əlbəttə, Azərbaycanın yaratdığı reallığı kimsə dəyişə bilməzdi, lakin istənilən halda Kılıçdaroğlunun mesajları narahatlıqlar vəd edirdi. Kılıçdaroğlu və müttəfiqləri cənab Ərdoğanın özü ilə bərabər həm də Türkiyəni güclü edən Azərbaycanı hədəfə almışdılar, amma o adamlar da, onların Çinə çəkəcəkləri yol da cənab İlham Əliyevin təbiri ilə desək, getdi o məşhur "statusun" yanına. Bu mənada 28 may seçkilərində qələbə həm də ən yüksək səviyyədə olan Azərbaycan-Türkiyə münasibətlərinin qızıl dövrünün yeni mərhələsini başlatmış oldu. Sirr deyil ki, güclü Türkiyə güclü Azərbaycan deməkdir. Amma bu mürəkkəb siyasi situasiyada cənab İlham Əliyev həm də göstərdi ki, eyni zamanda güclü Azərbaycan da güclü Türkiyə deməkdir.

Bəli, bu gün qalib bizik. Bizim gücümüz, bizim birliyimiz, cənab Prezidentin dediyi kimi, "bir millət, iki dövlət və bir yumruq" olmağımız isə bölgəmizdə sülhün, təhlükəsizliyin yeganə qarantıdır".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu öncəliklə müxalifətin məğlubiyyət səbəbini 5 hissəyə ayırdı:** "Müxalifətin formalaşdırdığı "Altılı masa" Cümhuriyyət Xalq Partiyasının lideri Kamal Kılıçdaroğlunu uğura apara bilmədi. Birincisi, keçmiş nazirlər Əli Babacanla Əhməd Davudoğlu müxalifətə əlavə səs qazandıra bilmədilər, çox danışsalar da, Kamal Kılıçdaroğluna faydası olmadı. İkincisi, İyi Partiyanın lideri Meral Akşener ilk gündən Kamal Kılıçdaroğlunun yerinə qalib gələ bilən namizədin irəli sürülməsini istədi, hətta masadan qalxdı, ancaq onu eşidən olmadı. Üçüncüsü, "Altılı masa" vahid namizəd məsələsini çox gec müəyyənləşdirdi. Dördüncüsü, Kamal Kılıçdaroğlu PKK-nın siyasi qanadı ilə ittifaqda olmadığını cəmiyyətə izah edə bilmədi və bu səbəbdən milliyyətçilərin səslərini qazana bilmədi. Beşincisi, Kamal Kılıçdaroğlunun seçki kampaniyası zamanı Türkiyə vətəndaşlarının mənfi yanaşdığı ABŞ-a səfərinin və orada keçirdiyi görüşlərin ona xeyrindən çox ziyanı oldu. Bundan sonra nə olacaq? Kamal Kılıçdaroğlu böyük ehtimalla partiyasından və siyasətdən çəkiləcək. Meral Akşenerin "axı mən sizi xəbərdar etmişdim ki, gəlin ya İstanbul, ya da Ankaranın bələdiyyə başçısının namizədliyini irəli sürək" açıqlamasının aktuallığı artacaq və müxalifətdə çat əmələ gələcək. Buna baxmayaraq, Ərdoğanın qarşısında mürəkkəb vəzifələr var. Bunlardan başlıcası iqtisadiyyatdakı geriləməni və dərinləşən inflyasiyanı durdurmaq və insanların rifah halını yüksəltməkdir. Azərbaycana gəldikdə, müttəfiqlik daha da güclənəcək və bu bizə Qarabağda yerdə qalan məsələləri də həll etməyə imkan verəcək. Ərdoğanın qələbəsi erməniləri də məyus edib. Rusiya Prezidenti Vladimir Putin Cənubi Qafqazda Ərdoğan faktoru ilə əvvəlki kimi hesablaşacaq".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



# Türkiyə: parlament seçkilərinin nəticəsi təsdiqləndi

**Türkiyənin Ali Seçki Qurumu mayın 14-də keçirilmiş parlament seçkilərinin rəsmi nəticələrini açıqlayıb. Novator.az bildirir ki, "Cümhur" İttifaqından Ədalət və İnkişaf Partiyası 600 nəfərlik Türkiyə Böyük Millət Məclisində 268 mandata (Demokratik Sol və Hür Dava partiyaları ilə birgə) sahib çıxır, Milliyyətçi Hərəkat Partiyası 50, Yenidən Rifah Partiyası 5 yer götürür.**

"Millət" İttifaqında Cümhuriyyət Xalq Partiyası 169 mandat (Demokratiya və Sıçrayış, Gələcək, Səadət, Demokrat, Türkiyə İslahat partiyaları, İYİ Partiya ilə birgə), İYİ Partiya 43 mandat alır.

Əmək və Azadlıq ittifaqından Yaşıllar və Sol Gələcək Partiyası 61 mandat (Xalqların Demokratik və Əmək partiyaları ilə birgə), Türkiyə Fəhlə Partiyası 4 mandat əldə edir.

Parlament seçkisi prezident seçkisi ilə eyni gündə keçirilib. İlk turu "Cümhur" İttifaqının namizədi, dövlət başçısı, Ədalət və İnkişaf Partiyasının lideri Rəcəb Tayyib Ərdoğan 49,52 faiz, "Millət" İttifaqının namizədi, parlament üzvü, Cümhuriyyət Xalq Partiyasının lideri Kamal Kılıçdaroğlu 44,88 faiz, "ATA" İttifaqının namizədi, müstəqil siyasətçi Sinan Oğan 5,17 faiz, liderlik etdiyi Məmləkət Partiyasının namizədi, mayın 11-də yarışdan çəkilmiş Məhərrəm İncə 0,43 faiz səslə bitirib.

Mayın 28-də keçirilmiş ikinci turda Rəcəb Tayyib Ərdoğan 52,18 faiz, Kamal Kılıçdaroğlu 47,82 faiz səs toplayıb.

1954-cü il təvəllüdlü Rəcəb Tayyib Ərdoğan 2003-cü ildən baş nazirlik edib, 2014-cü ildə prezident seçilib. 2017-ci ildə Türkiyədə prezident idarə üsuluna keçidi nəzərdə tutan konstitusiya referendumu olub, 2018-ci ildə Rəcəb Tayyib Ərdoğan yenidən prezident postuna mandat alaraq həm də hökumət başçısı səlahiyyətlərinə yiyələnib.

Yeni MÜSAVAT
N 93 (8229) 31 may 2023

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

**Ötən həftəsonu "Böyük Qayıdış" Dövlət Proqramına uyğun olaraq uzun illik həsrətdən sonra işğaldan azad olunmuş Laçın şəhərinə ilk köç başladı. 20 laçınlı ailədən ibarət köç karvanı (97 nəfər) doğma torpaqlarında yenidən məskunlaşdılar. Laçına ilk köç karvanı Bakı şəhərinin Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu park 3" yaşayış kompleksindən yola salınıb.**



# "Laçınlıların həyatında tarixi anlar idi..."

## Deputat 30 illik ayrılıqdan sonra vətəninə qayıdanların sevincindən danışdı



"Böyük Qayıdış" çərçivəsində 2023-cü ildə Laçın şəhərinə 700 ailənin, Zabux və Sus kəndlərinə isə 800-dən çox sakinin köçürülməsi nəzərdə tutulub. Qeyd edək ki, bu ilin sonundan etibarən Şuşa şəhərinə ilkin olaraq 1500 sakinin köçürülməsi də nəzərdə tutulub. "Böyük Qayıdış" Dövlət Proqramına əsasən, Şuşanın keçmiş sakinlərinin bu şəhərə qayıtması və onların layiqli həyat şəraitinin yaradılmasını təmin etmək üçün artıq Şuşada ötən ilin avqust-sentyabr aylarından başlayaraq 450 mənzillik 23 yaşayış binasının tikintisinə başlanılıb.

**Laçının Güləbird kəndindən olan, deputat Mahir Abbaszadə "Yeni Müsavat"a bu tarixi günlə bağlı sevincini bölüşdü:** "Azərbaycan torpaqlarını işğaldan azad etdikdən sonra dövlətimizin qarşısında duran əsas məsələlərdən biri də həmin ərazilərdə bərpa-quruculuq işlərini həyata keçirmək və məcburi köçkün düşmüş insanları geri qaytarmaqdır. Bu istiqamətdə də kifayət qədər işlər görülməkdədir. Biz may ayının 28-də Müzəffər Ali Baş Komandanımız, Cənab Prezidentin rəhbərliyi ilə Laçın şəhərinin mərkəzində bir qrup insanların qayıdışının, onlara evlərinin açarlarının verilməsinin şahidi olduq. Bütün bunlar hər bir laçınlının həyatında tarixi anlardır. Həm 30 illik torpaq həsrətinə son qoyulması nöqteyi-nəzərindən, həm uzun müddət ata-baba yurdlarından didərgin düşmüş insanların ağır həyatlarına son qoyulması baxımından, həm də bundan sonrakı həyatlarını Laçında yaşamaq, yaratmaqla bağlı arzularının çin olması nöqteyi-nəzərindən çox tarixi anlar yaşanıldı. Bütün bunlar üçün biz Müzəffər Ali Baş Komandanımıza təşəkkürlərimizi bildiririk. Allah qazilərimizə cansağlığı versin, şəhidlərimizə rəhmət eləsin, Azərbaycan Ordusunu Allah daim güclü etsin. Biz ordumuzun gücü sayəsində torpaqlarımıza qayıda bildik. Azərbaycan dövləti azad edilən ərazilərdə bərpa-quruculuq işləri aparmaq, böyük qayıdışı sürətlə reallaşdırmaq məqsədilə 2022-26-cı illər Dövlət Proqramı qəbul edib. Həmin Dövlət Proqramına uyğun olaraq, bərpa-quruculuq işləri çox sürətlə aparılır. Bunun nəticəsində ilin sonuna qədər Laçın şəhərinin mərkəzinə təxminən 720 ailənin, rayonun Zabux kəndinə 223 ailənin, digər kəndlərə 150 ailənin köçürülməsi nəzərdə tutulur ki, bu da bütövlükdə təxminən min ailəyə qədər edir və 4 min nəfəri əhatə edəcək. Bütün bunlar 2023-cü il üçün nəzərdə tutulur. Yəqin ki, gələn illərdə də bu köçün mütləq davamı olacaq. Cənab Prezident tərəfindən Laçın rayonunun Güləbird, Qorçu, Şəlvə kəndlərinin bünövrələrinin qoyulmasının təməlqoyma mərasimləri qeyd olunub. Bundan sonrakı müddətdə də tikinti prosesləri davam edəcək".

**Deputat azad edilən digər ərazilərə də məcburi köçkünlərin sürətlə köçürülməsinin nəzərdə tutulduğunu qeyd etdi:** "Düşünürəm ki, Azərbaycan dövləti bundan sonrakı müddətdə də təkcə Laçına deyil, Şuşaya, Kəlbəcərə, Qubadlıya, Zəngilana, Ağdama, Füzuliyə, Talış kəndinə və digər kəndlərə köç təşkil olunacaq ki, bu da qarşıda duran vəzifələrin nə dərəcədə yüksək səviyyədə həyata keçirilməsini göstərir. Eyni zamanda bir məsələni də xüsusilə, qeyd etmək lazımdır ki, Laçın şəhər mərkəzinin çox qısa zaman keçdikdən sonra, yəni 7-8 ay müddətində ötən il avqust ayının 26-da təmir, bərpa-quruculuq işlərinin aparılması ilə vətəndaşlara təhvil verilməsi bir tərəfdən Azərbaycan dövlətinin və dövlət başçısının siyasi iradəsini özündə ehtiva edirsə, digər tərəfdən Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə uzun müddət ölkədə yaradılmış iqtisadi gücdən, imkanlardan, xüsusən maliyyə imkanlarından xəbər verir. Bütün bunlar göstərir ki, Azərbaycan digər işlərdə olduğu kimi, "Böyük Qayıdış" proqramının həyata keçirilməsində də planlı işlər görür. Hesab edirəm ki, bundan sonrakı müddətdə də məcburi köçkün düşmüş insanların öz ata-baba yurdlarına köçürülmələri təmin ediləcək və onlar orada daimi yaşayacaqlar".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Cavanşir ABBASLI

# Bütün dövlət kinostudiyalarında istehsalat dayandırılıb

## Rasim Balayev 28 500 manatlıq filmini harada çəkəcək?

**"Bütün dövlət kinostudiyalarında istehsalat prosesi dayandırılıb". Bu barədə Mədəniyyət Nazirliyindən məlumat verilib. Bildirilib ki, Kino Agentliyi (ARKA) fəaliyyətə başladıqdan sonra ölkədə kinematoqrafiya sahəsinin müxtəlif istiqamətlərində islahatların aparılması ilə yanaşı, dövlət sifarişi və dəstəyi ilə kino istehsalı, o cümlədən animasiya filmlərinin çəkilməsi sahəsində də müvafiq işlərin görülməsi nəzərdə tutulur: "ARKA-nın ən yaxın zamanda fəaliyyətə başlaması üçün aidiyyəti qurumlarla birgə müvafiq tədbirlər görülür".**



Qeyd edək ki, 2022-ci il aprelin 20-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Kino Agentliyi" publik hüquqi şəxsin yaradılması haqqında fərman imzalayıb. Agentlik Azərbaycanda kinematoqrafiya sahəsində dövlət siyasətinin həyata keçirilməsinin təkmilləşdirilməsi, Azərbaycan kinematoqrafiyasının beynəlxalq rəqabətə davamlılığının təmin edilməsi, yerli istehsal və yayım infrastrukturunun müasirləşdirilməsi məqsədilə yaradılıb.

Azərbaycanda dövlət kinostudiyaları "Azərbaycanfilm" kinostudiyası və onun nəzdində fəaliyyət göstərən "Debüt" (bədii, sənədli, xronikal, eksperiment, cizgi filmləri çəkilib), "Mozalan" (satirik kinojurnalı üçün süjetlər, sənədli və bədii filmlər istehsal edib), "Salnamə" (sənədli filmlər istehsal edib), həmçinin Mədəniyyət Nazirliyinə məxsus "Yaddaş" Sənədli Filmlər Studiyasıdır.

Bəs dövlət kinostudiyalarında istehsalat prosesinin dayandırılmasının əsas səbəbi nədir? Dövlət büdcəsi ilə maliyyələşən yeni filmlərin istehsalat prosesləri harada aparılacaq?

Məsələ ilə bağlı "Yeni Müsavat" olaraq Mədəniyyət Nazirliyinə sorğu göndərdik. Qurumdan bildirildi ki, sorğumuz tez bir zamanda cavablandırılacaq.




Bu arada qeyd edək ki, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi QHT-lər arasında keçirdiyi qrant müsabiqəsinin nəticələrinə əsasən, "Azərbaycan Kinematoqrafçılar İttifaqı" İctimai Birliyinin təqdim etdiyi "Qərbi Azərbaycan: Maddi və mənəvi irsimiz" adlı layihə qalib olub. QHT Agentliyi xalq artisti Rasim Balayevin rəhbəri olduğu layihənin icrasına 28 500 manat vəsait ayırıb. Xalq artisti mətbuata açıqlamasında həmin vəsaitə eyniadlı layihə əsasında sənədli film çəkəcəyini deyib.

Əgər dövlət kinostudiyalarında istehsalat prosesi dayandırılıbsa, Rasim Balayev filmini hansı kinostudiyada çəkməyi düşünür?

**Mövzu ilə bağlı xalq artisti "Yeni Müsavat"a danışıb:** "Ola bilməz ki, dövlət kinostudiyasında istehsalat prosesi dayandırılsın. Çünki çəkəcəyimiz filmlə bağlı kinostudiyanın pavilyonu və digər avadanlıqları bizə lazım olacaq. Hər halda, bu layihəyə vəsait ayıran da, göstəriş verən də Mədəniyyət Nazirliyidir, ixtiyar onlardadır. Buna görə də çəkilişlərin harada, necə aparılacağını qurumdan soruşub öyrənə bilərsiniz".

**Bəs kinematoqrafçıların Kino Agentliyinin gələcək fəaliyyətindən gözləntiləri hansılardır?**

**Əməkdar incəsənət xadimi, kinorejissor Ayaz Salayev sualımıza bu cür cavab verdi:** "Mən hər zaman bildirmişəm, indi də təkrarlayıram ki, kinomuzun inkişafını yalnız beyinlərlə əlaqələndirirəm. Kino təşkilatı sahəsində islahatlar vəziyyəti kökündən dəyişə bilməz. Vəziyyəti yalnız yaradıcı, ideoloji məsələlər kökündən dəyişə bilər. Yəni kinoya sənətkar, böyük şəxsiyyətlər, vətəndaşlar və mövqeyi olan, dünya mədəniyyətinə mənsub gənclər gəlməlidir ki, nəsə dəyişsin".

**Kinotənqidçi Sevda Sultanova isə dedi ki, yalnız Kino Agentliyi fəaliyyətə başlayandan sonra hansısa gözləntilər haqqında danışıb onu dəyərləndirmək olar:** "İndiki halda bu qurum haqqında heç bir fikir söyləmək mümkün deyil".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Ətin bahalaşmasının daha bir səbəbi: heyvandarlığa dotasiya az ayrılır?

## Firdovsi Fikrətzadə: "Azərbaycanda dövlət dotasiyası heyvandarlıq sahəsində məhsuldarlığı artırmağa yönəlib"

**Azərbaycanda əhalinin gündəlik qida rasionunda ət və ət məhsullarının xüsusi yeri var. Təsadüfi deyil ki, milli mətbəximizdə hazırlanan ən dadlı yeməklərin hazırlanmasında ətdən geniş istifadə olunur. Bu mənada demək olar ki, sözügedən məhsullar ən çox istehlak etdiyimiz məhsullar sırasında yer alır. Ölkədə istehlak tələbi artır: rəsmi statistikaya görə, ölkə üzrə illik adambaşına ət və ət məhsulları istehlakı 42 kiloqrama yaxınlaşır. Bu istehlakın tərkibində ən yüksək paya 16 kq ilə mal əti sahibdir. Qoyun və keçi əti istehlakı adambaşına 9 kq, quş əti istehlakı isə 15,4 kq civarındadır. Əhali sayının da artımını nəzərə alsaq, Azərbaycanda ət istehsalının artan tələbatı qarşılamaq üçün sürətlə çoxaldılması gərəkir...**



Rəsmi statistikaya əsasən, 2021-ci illə müqayisədə 2022-ci ildə diri çəkidə ət istehsalı 3,0 faiz artaraq 628,0 min ton olub. Bu ilin yanvar-aprel ayları ərzində isə Azərbaycanda quş əti də daxil olmaqla, diri çəkidə 187,3 min ton ət istehsal olunub. Bu, 2022-ci ilin müvafiq dövrünə nisbətən 3,1 faiz artım deməkdir.

İstehsalla yanaşı, ət idxalında da artım var. Belə ki, Dövlət Gömrük Komitəsinin açıqladığı statistik məlumatlara əsasən, bu ilin yanvar-aprel aylarında 14,2 min ton ət idxal edilib. İdxal edilən ətin dəyəri 24,9 milyon dollar olub. Bildirilib ki, ötən ilin eyni dövründə dəyəri 21,1 milyon dollar olmaqla, 12,2 min ton ət idxal edilib.

Azərbaycanda mal və qoyun əti istehsalında diri heyvan idxalı mühüm paya malikdir. Çoxsaylı təsərrüfatlar əsasən Gürcüstan, Rusiya və Ukraynadan diri heyvanı alıb gətirərək, onları müəyyən müddətdə kökəldir və kəsimə verirlər. Rəsmi statistikadan aydın olur ki, 2022-ci ildə ölkəyə kəsim üçün 41 min 997 baş diri iribuynuzlu heyvan idxal olunub ki, bu da 2021-ci ildəkindən 4071 baş, yaxud 8,8 faiz azdır. 2021-ci ildə diri iribuynuzlu heyvanların 1667 başı Rusiyadan, 5145 başı Ukraynadan, 38176 başı Gürcüstandan gətirilmişdisə, 2022-ci ildə məlum səbəbdən Ukraynadan idxal olmayıb, 39648 başı Gürcüstandan, 2239 başı Rusiyadan alınıb.

Çox maraqlıdır ki, ötən il Azərbaycana 194 min 562 baş, yəni əvvəlki ildəkindən 76988 baş və ya 65,5 faiz çox qoyun gətirilib. 2021-ci ildə qoyunların 44555 başı Rusiyadan, 65314 başı Gürcüstandan, 5495 başı Qazaxıstandan, 2200 başı Türkiyədən, 2022-ci ildə isə 16523 başı Rusiyadan, 175914 başı Gürcüstandan, 2037 başı Türkiyədən alınıb. Bu zaman əsas bazarımız olan Gürcüstandan 1 qoyunu 77,8 dollara almışıq. Halbuki 2021-ci ildə idxal etdiyimiz hər qoyuna görə gürcülərə 88,6 dollar ödəmişdik.

2021-ci ildə iribuynuzlu heyvanın 1 başını Gürcüstandan 461,8 dollara, 2022-ci ildə isə 591,3 dollara almışıq. Bu, bir heyvanda 130 dollara yaxın bahalaşma deməkdir.

Bu ilin birinci rübündə ölkəyə 1 milyon 239,87 min dollar dəyərində 14184 baş diri qoyun (ötən ilin eyni dövründə 1 milyon 343,85 min dollarlıq 15495 baş), 2 milyon 787,1 min dollar dəyərində 8825 baş iribuynuzlu heyvan (2 milyon 779,11 min dollar dəyərlə 7359 baş) idxal edilib. Ötən il bir baş qoyun ölkəyə 86,7 dollara, bir baş iribuynuzlu heyvan isə 377,6 dollara idxal olunub. Bu il idxal qiyməti müvafiq olaraq 87,4 dollar və 315,8 dollar təşkil edib.

Birinci rübdə Rusiyadan 1641 baş, Gürcüstandan 6464 baş, Qazaxıstandan 720 baş iribuynuzlu heyvan, Rusiyadan 5349 baş, Gürcüstandan 8335 baş, Türkiyədən 500 baş diri qoyunlar idxal olunub.

Göründüyü kimi, bu ilin birinci rübü ərzində ölkəyə diri qoyun idxalı azalıb, qiyməti bahalaşıb, iribuynuzlu heyvan idxalı isə artıb, qiyməti ucuzlaşıb. Lakin pərakəndə satış nöqtələrində bu ucuzlaşma hələlik hiss olunmur. Əksinə, həm qoyun, həm də mal ətində bahalaşma davam edir. Hazırda qoyun ətinin 1 kiloqramı 16-17 manata, mal əti isə 14-18 manata satılır.

Ölkə üzrə heyvan sayının azalması davam edir. Belə ki, ötən ilin aprelində qeydə alının 1 milyon 295,3 min baş təşkil edəninək-camış sayı bu ilin eyni dövründə 1 milyon 253,2 min başa düşüb. Bu, 42,1 min baş azalma deməkdir. Qoyun-keçi sayı isə ötən ilki 8 milyon 168,8 min başdan indi 7 milyon 360,8 minə düşüb ki, bu da 808 min baş azalma olmasından xəbər verir.

Müstəqil mütəxəssislər ölkədə mal-qara sayının kəskin azalmasını 2015-ci ildən etibarən örüş-otlaq ərazilərinin kütləvi şəkildə bitki əkinçiliyinə verilməsi ilə izah edirlər. Belə ki, heyvandarlıq təsərrüfatlarının qışlaq kimi istifadə etdiyi ərazilərin böyük hissəsi bitki əkinlərinə ayrılıb. Bu səbəbdən fermerlər məcburən heyvan sayını azaldırlar, əvəzində idxalın tələbatın ödənməsində payı artır.

Bir sıra mütəxəssislər hesab edirlər ki, Azərbaycanda dövlət heyvandarlığa lazımi qədər dəstək vermədiyinə görə ət və ət məhsullarının qiyməti bahalaşır. **Kənd Təsərrüfatı Nazirliyi Aqrar Tədqiqatlar Mərkəzinin rəhbəri Firdovsi Fikrətzadənin "Yeni Müsavat"a dediyinə görə, Azərbaycanda dövlət heyvandarlıq sahəsinə 3 istiqamətdə dəstək verir:** "Birincisi, intensiv fermaları qurmaq üçün cins mallar və zəruri avadanlıqlar fermerlərə 60 faiz güzəştlə satılır. İkinci dəstək, süni mayalanma sisteminin qurulmasıdır. Burada iki istiqamət var: birincisi, dövlət süni mayalanma üçün texnoloji-elmi bazanı yaradır, ikincisi, süni mayalanma yolu ilə əldə edilən hər buzova görə fermerə 100 manat subsidiya ödənilir. Heyvandarlığa üçüncü dəstək mexanizmi bütün növ sənaye yemlərinin idxalının, satışının ƏDV-dən azad olunmasıdır. Bundan əlavə, bir sıra bitkiçilik sahələri üçün verilən subsidiya elə heyvandarlıq sahəsi üçün əlverişli şərtlər formalaşdırır. Məsələn, arpa, soya, qarğıdalı vəsair heyvandarlıqda yem kimi istifadə olunan bitkilərin əkini subsidiyalaşdırılır. Yəni bu da heyvandarlıq üçün dəstək mexanizmi hesab oluna bilər".

ATM rəhbəri qeyd edir ki, Azərbaycanda heyvandarlığa dövlət dəstəyi sırf məhsuldarlığın artırılması, intensiv ferma modelinə keçidin stimullaşdırılmasına yönəlib.

Xatırladaq ki, Azərbaycanda ərzaq bazarını Ukraynada başlayan müharibənin qlobal bazarlara təsirindən qorumaq üçün 2022-ci ildə hökumət bir sıra addımlar atıb. 2022-ci ilin may ayından Nazirlər Kabinetinin qərarı ilə yem və yem əlavələrinin idxalı gömrük rüsumundan azad edilib. Nazirlər Kabinetinin 30 iyun tarixli "Satışı əlavə dəyər vergisindən azad olunan heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem və yem əlavələrinin Siyahısı"nın təsdiq olunmasına dair qərarına əsasən 72 növdə yem və yem əlavələrinin satışı Əlavə Dəyər Vergisindən azad olunub.

İyulda isə Prezident İlham Əliyev "İdxalı əlavə dəyər vergisindən azad edilən xammal və materialların siyahısı"nın təsdiqi və "İdxalı əlavə dəyər vergisindən azad edilən xammal və materialların siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 2 noyabr tarixli 1654 nömrəli Fərmanının ləğv edilməsi barədə" fərman imzalayıb. Bu fərmanla quşçuluq və heyvandarlıq sahələrində istifadə olunan əsas yem məhsullarının idxalı da ƏDV-dən azad edilib.

Prezidentin fərmanına əsasən yemlərin idxalının ƏDV-dən azad olunması müddəti 1 yanvar 2023-cü ilə qədər, yem və yem əlavələrinin idxalının gömrük rüsumlarından azad olunması müddəti isə 31 dekabr 2022-ci il tarixədək müəyyən edilmişdi. Nazirlər Kabinetinin qərarı ilə yem və yem əlavələrinin idxalının ƏDV-dən azadolma müddəti 2030-cu ilədək uzadılıb.

Hökumətin rəsmi açıqlamasına əsasən hazırda yem xərclərinin məhsulun maya dəyərində payı quşçuluq məhsullarının (quş əti və yumurta) istehsalı üzrə 70 faizə yaxın, mal əti və süd istehsalı üzrə isə 70 faizdən çox təşkil edir. Buna görə də yem və yem əlavələrinin idxalının 18 faizlik ƏDV-dən azad olunmasının bazara çıxarılan son məhsulun qiymətinə əhəmiyyətli təsiri mümkündür. Məsələn, 2022-ci ildə ölkəyə 66 milyon 289,53 min dollar dəyərində 104757,18 ton soya yağının ekstraksiyası nəticəsində alınan cecələr və digər bərk tullantılar idxal edilib. Bu idxalın ƏDV-dən azad olunması heyvandar və quşçuların13 milyon dollara yaxın əlavə xərcdən azad olunması deməkdir. Bura qarğıdalı, günəbaxan cecesi, arpa və buğda kəpəyi, yem əlavələrinin dəyərini də əlavə etdikdə, 2022-ci ildə dövlətin heyvandar və quşçulara idxalın ƏDV-dən azad olunması yolu ilə 25-30 milyon dollara yaxın güzəşt tətbiq etdiyini söyləyə bilərik.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

**Elan**

**Məmmədzadə Elçinə məxsus şəxsiyyəti təsdiq edən sənəd itdiyinə görə etibarsız hesab edilir.**

Yeni MÜSAVAT
N 93 (8229) 31 may 2023

# Büdcədə 4,4 milyard manatlıq dəyişiklik: əlavə gəlirlər hara xərclənəcək?

## Dövlət büdcəsinin gəlirlərinin 52,5 faizi və ya 17 milyard 739,7 milyon manatı neft sektorunun, 47,5 faizi və ya 16 milyard 39,8 milyon manatı qeyri-neft sektorunun payına düşəcək

**Azərbaycanda 2023-cü il dövlət büdcəsinə ediləcək dəyişiklikləri nəzərdə tutan sənəd Milli Məclisə daxil olub.**

Qeyd edək ki, 2023-cü ilin yanvar-aprel aylarında Azərbaycanın ixrac etdiyi "Azeri Light" markalı xam neftin bir barrelinin orta ixrac qiyməti 85,8 dolları təşkil edib. Bu isə 2023-cü ilin təsdiq edilmiş büdcə parametrlərinin hesablanması zamanı götürülmüş qiymətdən 35,8 dollar çoxdur. Hökumət büdcə dəyişikliyində gəlir və xərcləri neftin 1 barelini 60 dollardan götürməklə hesablayıb ki, bunu mühafizəkar yanaşma hesab etmək mümkündür. Çünki beynəlxalq maliyyə qurumları, analitik mərkəzlərin ən pessimist proqnozlarında belə neftin 2023-cü il üçün orta qiyməti 80 dollardan aşağı deyil.

Hökumət bildirir ki, 2023-cü ilin ilk dörd ayında icmal büdcənin gəlirləri 21 milyard 262,8 milyon manat olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 9 milyard 154,7 milyon manat və ya 75,6 faiz çoxdur. İcmal büdcə xərcləri isə 9 milyard 957,9 milyon manat təşkil edib ki, bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 863,5 milyon manat və ya 9,5 faiz çoxdur. Cari ilin ilk dörd ayında icmal büdcədə faktiki olaraq 11 milyard 304,9 milyon manat büdcə artıqlığı (profisit) yaranıb.

Yanvar-apreldə dövlət büdcəsinin gəlirləri 11 milyard 473,6 milyon manat proqnoza qarşı 12 milyard 165,0 milyon manat və ya 106,0 faiz olub ki, bu da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 1 milyard 477,5 milyon manat və ya 13,8 faiz çoxdur.

2023-cü ilin dörd ayında dövlət büdcəsi xərclərinin 8 milyard 321,6 milyon manat proqnoza qarşı 8 milyard 929,7 milyon manat və ya 107,3 faiz icra edilməsinə baxmayaraq, dövlət büdcəsində 3 milyard 235,3 milyon manat profisit qeydə alınıb.

2023-cü il üzrə makroiqtisadi proqnozlarında dəyişiklik edib. Belə ki, bu il ölkədə iqtisadi artımın 2,7 faiz deyil, 1,8 faiz olacağı gözlənilir. Orta illik inflyasiya proqnozu isə əvvəlcədən proqnozlaşdırılan 6,9 faizdən 10,4 faizə qaldırılıb.




Hökumət 2023-cü il dövlət büdcəsinə 4 milyard 338,4 milyon manat əlavə edir. Bildirilir ki, bu vəsait büdcə gəlirlərinin və Dövlət Neft Fondunun dövlət büdcəsinə transfertinin artırılması, təsdiq olunmuş bəzi xərclərin optimallaşdırılması və yerdəyişməsi nəticəsində formalaşan sərbəst vəsaitin, habelə dövlət büdcəsi kəsirinin böyüdülməsi hesabına qarşılanacaq. Bu zaman Dövlət Neft Fondundan büdcəyə nəzərdə tutulan transfertin həcmi 457,7 milyon manat, neft-qaz sektorunda fəaliyyət göstərən şirkətlərin ödədiyi mənfəət vergisinin həcmi isə 985 milyon artırılır.

Büdcənin əlavə xərclərinin daha 1 milyard 562,8 milyon manatı əlavə qeyri-neft gəlirləri hesabına təmin ediləcək. Dövlət büdcəsinin bəzi xərclərinin optimallaşdırılması və xərcləri arasında yerdəyişmə nəticəsində 1122,9 milyon manat təmin olunacaq. Bundan əlavə, dövlət büdcəsinin genişlənmiş kəsirinin maliyyələşmə mənbəyi kimi dövlət borclanması və özəlləşdirilmədən daxilolmalar hesabına 210,0 milyon manat artırılması nəzərdə tutulur.

Beləliklə, 2023-cü il dövlət büdcəsinə dəyişiklikdən sona gəlirləri 33 milyard 779,5 milyon manat proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 3 milyard 5,5 milyon manat və ya 9,8 faiz çoxdur.

Dövlət büdcəsinin gəlirlərinin 52,5 faizi və ya 17 milyard 739,7 milyon manatı neft sektorunun, 47,5 faizi və ya 16 milyard 39,8 milyon manatı qeyri-neft sektorunun payına düşəcək. 2023-cü ilin təsdiq olunmuş göstəriciləri ilə müqayisədə neft sektoru üzrə gəlirlər 1 milyard 442,7 milyon manat və ya 8,9 faiz, 2022-ci ilin icra göstəricisinə nisbətən 2 milyard 410,1 milyon manat (15,7 faiz), qeyri-neft sektoru üzrə isə 1 milyard 562,8 milyon manat və ya 10,8 faiz, 2022-ci ilin icra göstəricisinə nisbətən 689,8 milyon manat (4,5 faiz) artırılır.

Bütövlükdə dövlət büdcəsi gəlirlərinin tərkibində qeyri-neft gəlirlərinin xüsusi çəkisi təsdiq olunmuş göstəriciyə nisbətən 0,5 faiz-bənd artaraq 47,5 faiz təşkil edəcək.

Dövlət büdcəsi gəlirlərinin 14 milyard 932,0 milyon manatı və ya 44,2 faizi İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmaların, 5 milyard 728,0 milyon manatı və ya 17,0 faizi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 11 milyard 737,7 milyon manatı və ya 34,7 faizi Dövlət Neft Fondundan transfertin, 801,0 milyon manatı və ya 2,4 faizi büdcə təşkilatlarının büdcədənkənar gəlirləri üzrə daxilolmaların, 580,8 milyon manatı və ya 1,7 faizi sair gəlirlərin payına düşəcək.

Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmaların məbləği 14 milyard 932,0 milyon manat nəzərdə tutulur ki, bu da cari ilin təsdiq olunmuş göstəricisinə nisbətən 1 milyard 530,0 milyon manat və ya 11,4 faiz çoxdur. Müvafiq olaraq Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmaların 6 milyard 2,0 milyon manatı və ya 40,2 faizi neft sektorunun, 8 milyard 930,0 milyon manatı və ya 59,8 faizi isə qeyri-neft sektorunun payına düşəcək.

Yenidən baxılmış 2023-cü il dövlət büdcəsinə Dövlət Vergi Xidmətinin xətti ilə qeyri-neft sektoru üzrə daxilolmalar 8 milyard 930,0 milyon manata çatdırılır ki, bu da cari il üçün təsdiq olunmuş göstəricilər ilə müqayisədə 545,0 milyon manat və ya 6,5 faiz, 2022-ci ilin icra göstəricisi ilə müqayisədə isə 793,7 milyon manat və ya 9,8 faiz çoxdur.

Yenidən baxılmış 2023-cü il dövlət büdcəsinin xərcləri 36 milyard 568,8 milyon manat məbləğində proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 3 milyard 215,5 milyon manat və ya 9,6 faiz çoxdur.

Dəyişiklik nəticəsində büdcənin cari xərclərinə ümumi xərclərin 60,3 faizi həcmində və ya 22 milyard 39,3 milyon manat (681,7 milyon manat və ya 3,0 faiz azaldılır), əsaslı xərclərinə ümumi xərclərin 36,5 faizi həcmində və ya 13 milyard 347,0 milyon manat (3 milyard 719,7 milyon manat və ya 38,6 faiz çoxaldılır), dövlət borcuna xidmətlə bağlı xərclərə ümumi xərclərin 3,2 faizi həcmində və ya 1 milyard 182,5 milyon manat (177,5 milyon manat və ya 17,7 faiz çoxaldılır) vəsait yönəldiləcək.

Layihədən aydın olur ki, azad olunan ərazilərdə bərpa və yenidənqurma işlərinin sürətləndirilməsini əlavə olaraq 2 milyard 260 milyon manat ayrılmaqla onun ümumi həcmi 5 milyard 260,0 milyon manata çatdırılacaq.

Ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da artırılması üçün əlavə olaraq 1 milyard 105,0 milyon manat yönəldiləcək. Artımdan sonra xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər 2 milyard 70,0 milyon manat təşkil edəcək.

Neftin 60 dollar qiyməti ilə Dövlət Neft Fondunun gəlirləri cari ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 7 milyard 346,6 milyon manat və ya 81,7 faiz artırılaraq 16 milyard 337,5 milyon manata çatdırılır.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Marketlərdə saxta düyü iddiası

## Məhsəti Hüseynova: "200-300 qram saxta düyü qəbul etmək bir polietilen torba qəbul etməyə bərabərdir"

**AQTA bəyan edir ki, sosial mediada satışda guya saxta (süni) düyülərin olması barədə yayılan iddialar əsassızdır. Son monitorinqlərin və aparılan laborator müayinələrin nəticəsi göstərir ki, dövriyyədə olan düyü məhsulları təbii mənşəlidir.**

Sağlam qidalanma üzrə mütəxəssis, Qida Təhlükəsizliyi Hərəkatının rəhbəri Məhsəti Hüseynova "Yeni Müsavat"a bildirdi ki, dünyanın bir çox ölkəsində düyü ən çox istehlak olunan məhsullardan biridir. Ekspert qeyd etdi ki, digər məhsullarda olduğu kimi, düyünün tərkibində də hiylələrə əl atılır: "Bu gün satışda saxta düyüyə rast gəlmək olar. Saxta düyünü təbii düyüdən ayırmaq üçün bəzi əyani vasitələrdən istifadə etmək olar. Azərbaycanda, xüsusilə cənub bölgəsində təbii düyü sortları yetişdirilir. Bir çox satış mərkəzindən əldə oluna biləcək bu düyülərdə özünəməxsus qoxu olur. Saxta düyülərdə qoxu olmur, eyni zamanda təbii düyüdən daha azçəkili olur. Ölçüyə diqqət etdikdə də görürük ki, düyü dənələri bir-birindən demək olar ki, fərqlənmir.



Saxta düyü plastikdən, kartof nişastası da istifadə edərək hazırlanır. Gün ərzində 200-300 qram belə düyü qəbul etmək bir polietilen torba qəbul etməyə bərabərdir. Eyni zamanda düyünü su vasitəsilə də yoxlamaq olar. 1 qaşıq düyünü 1 stəkan suda qarışdırdıqda təbii düyü stəkanın dibinə çökür, saxta düyü isə suyun üzərinə qalxır. Digər üsul yandırmaqdır. Əgər düyünü yandırdıqda bir-dən-birə alovlanırsa və plastik qoxusu hiss olunursa, demək ki, düyü saxtadır. Təbii düyü alışmadan, yavaş-yavaş kömür kimi qaralır. Eyni zamanda əzmək üsulu ilə də təbii düyünü saxta düyüdən ayırmaq olar. Təbii düyünü əzib toz halına gətirdikdə ağ olur və ələ yapışmır, saxta düyü isə sarımtıl rəng alır və nisbətən yapışqan olur. Düyünü su ilə isladıb qapalı qabda bir neçə gün saxlamaqla da onun saxta olub-olmadığını yoxlamaq olar. Əgər kiflənirsə, təbii düyüdür".

**Mütəxəssis qeyd etdi ki, bir müddət saxta düyüdən istifadə etmək həzm sisteminə mənfi təsir göstərir. M.Hüseynovanın sözlərinə görə, nəticədə mədə şirəsinin ifrazı azalır:** "Süni düyüdən istifadə baş ağrısı, qəbizlik, yorğunluq, qarın nahiyəsində şişkinliyə səbəb olur. Təbii düyünü isə gün ərzində 100-150 qramdan artıq yeməmək tövsiyə olunur. Düyü ilə bərabər karbohidrat, kartof, çörək kimi qidaların qəbulu məsləhət deyil".

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov mövzu ilə bağlı açıqlamasında bildirib ki, ölkəmizdə süni düyü heç vaxt olmayıb:** "Süni düyünün və yaxud plastmas düyünün ölkədə mövcudluğu barədə illər boyu Azad İstehlakçılar Birliyinə daim telefon zəngləri gəlir. Dünyada belə bir texnologiya mövcud olsa da, Azərbaycanda süni düyü və yaxud plastmas düyü deyilən bir şey yoxdur. Azərbaycana belə bir mal gətirilmir. Belə bir informasiyanın mövcudluğunun səbəbi odur ki, bəzən qadınlar düyünü düzgün dəmləyə bilmirlər. Sonra da düyünün saxtalığından, süniliyindən şübhələnirlər. İllər boyu insanlar müəyyən düyü növü bişirməyə öyrəniblər. İndi azad bazar iqtisadiyyatı olduğu üçün düyü növü çoxalıb. Hər düyünün özünə uyğun dəmləmə temperaturu var. Əsasən yerli düyülərə üstünlük verməyi tövsiyə edirəm. Tam ağardılmış, par-par parıldayan düyülərin qida dəyəri azdır. Düyü nə qədər az emal olunubsa, parıldamırsa, o qədər qidalıdır".

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni MÜSAVAT"**

YENİ MÜSAVAT
Son səhifə
N 93 (8229) 31 may 2023

# II Elizabet özü haqqında üç kitab yazılmasına icazə verib



**Böyük Britaniyanın keçmiş kraliçasının qarderobunda xidmət edən Anjela Kelli dostlarına bildirib ki, Kraliça II Elizabet məktubunda üç kitab nəşr etməyə icazə verib. Kelli iddia edir ki, II Elizabet bununla bağlı yazılı icazə verib, hansı ki, bu, III Çarlzın xoşuna gəlməyə bilər. O hesab edirdi ki, müəllifin son kitabında intim detallar həddən artıqdır. Məsələn, yenilənmiş nəşrə 2021-ci ildə Edinburq hersoqunun ölümündən sonra kraliçanın bu mərhələni necə yaşadığının detalları daxildir.**

Anjela Kelli artıq iki kitab yazıb və kralla gizlilik müqaviləsi imzalayıb. Bu, mərhum kraliçanın qarderob xidmətçisinə kitablarda "saray" və "kral" sözlərindən istifadə etməyi qadağan edir, eyni zamanda Kellinin daha bir kitab nəşr etdirmək ümidinə son qoyur.

Lakin mənbələr qeyd edirlər ki, Kelli kitabları nəşr etmək üçün mərhum kraliçanın yazılı razılığını əldə edib və bu, məlumatın açıqlanmaması haqqında müqavilədən üstün ola bilər. "Bu, çox vacibdir, çünki o, kraliçanın istəklərini ehtiva edir və heç kim onları görməzdən gəlmək istəmir", - deyə bildirilir.

## Çörək yemədən 1 aya nə qədər çəki atmaq olar?



**Pəhrizə başlar-başlamaq qida rasionundan çıxarılan ilk ərzaq çörəkdir. Bir çox mütəxəssis də çörəyin artıq çəkiyə səbəb olması tezisini təsdiqləyir. Lakin çörəklə birlikdə yeyilən qidaların da buna təsiri danılmazdır.**

Arıqlamaq istəyən şəxslərin çörəkdən imtina etməsi vaxt alır. Sağlam qidalanaraq çəki atmaq üçün atılan bu addım birdən-birə deyil, hissə-hissə atılmalıdır. Çörək deyil, çörəkdən həddindən artıq istifadə artıq çəkiyə səbəb olur. Bu səbəbdən də bəzi mütəxəssislər çörəyin tamamilə yeyilməməsinin tərəfdarı deyil. Bir çox insanı maraqlandıran sual isə çörək yemədən nə qədər arıqlaya biləcəyi ilə bağlıdır. Karbohidratlı qidaların başında yer alan çörəkdən istehlak etməmək ayda ortalama 4-5 kiloqram arıqlamağınıza yardımçı olacaqdır. Birinci mərhələdə çörəkdən tamamilə imtina etmək əvəzinə, hər yeməkdə yalnız 1 dilim yeyin. Çörək yeməyi dayandırmağa çalışarkən gözdən qaçan ən mühüm nüans isə onun tərkibindəki karbohidratların başqa qidalardan qarşılanmamasıdır. Aşağı kalorili dənli bitkilər, yulaf əzməsi, qəhvəyi düyü və müsli yeyərək bu problemi aradan qaldıra bilərsiniz.

Onu da vurğulayaq ki, bədənin vitaminlərə, minerallara və zülallara ehtiyacı olduğu qədər, karbohidratlara da ehtiyacı var. Bu səbəbdən gündə 1 dilim yemək daha faydalı olacaqdır. Pəhriz proqramında ağ çörəyi dənli bitkilər, çovdar, tam buğdadan hazırlananlarla əvəzləyə bilərsiniz.

## Qəhvə içməyin ziyanı və xeyri bunlardır



**Günün müxtəlif saatında qəhvə içmək hər birimiz üçün adət halını alıb. Ən çox da səhərlər günə qəhvə ilə başlayırıq. Son vaxtlar isə çoxları şəkərsiz, sürtgəcdən keçirilən qəhvədən istifadə edir. Bəs görəsən, bu qəhvə orqanizmə xeyirdir, yoxsa ziyan?**

Qəhvənin orqanizmə təsiri aşağıdakı kimidir: norveçli araşdırmaçılar 20-79 yaş arası insanlar arasında sənədlər toplayıb və 20 il müşahidə aparıb. Onların əksəriyyəti kağız sürtgəcdən keçirilmiş və ya süzülmüş digər qəhvələr içiblər.

Filtirdən keçirilən qəhvə içmək insanlar arasında ölüm riskini 15 faiz azaldır. Gündə 3-4 fincan içmək isə ziyandır.

Araşdırmaçılar filtirdən keçirilən qəhvə içənlərlə adi qəhvə içənlərin də sağlamlığının fərqləndiyini bildiriblər.

Filtirlənməmiş qəhvə orqanizmdə xolestronu çoxaldır. Ürək üçün ziyanlıdır.

Filtirlənmiş qəhvə isə ağız, qaraciyər və prostat vəzi xərçəngi riskini azaldır. Onu səhər yeməyindən və nahardan sonra içmək uyğundur. Axşam qəhvə içmək düzgün deyil.

## Keyt Middltonun xeyriyyə fondunun rəhbəri qatil çıxdı



**Uels şahzadəsi Keyt Middltonun himayəsi altında olan Britaniyanın "Action for Children" adlı uşaq xeyriyyə təşkilatının rəhbəri keçmişdə qətl törədib. O, etiraf edib ki, bütün həyatı boyu buna görə peşmandır. Hissləri barədə 60 yaşlı Pol Karberi mətbuata danışıb.**

16 yaşında ikən Karberi Qlazqoda küçə dəstəsinin üzvü olub. 1979-cu ildə futbol matçı üçün Qlazqodan Londona gedən qatarda əlbəyaxa dava zamanı 21 yaşlı gənci bıçaqlayıb və digər sərnişini yaralayıb. Gənc həbs olunub və 1985-ci ildə azadlığa çıxıb. Cəzasını çəkdikdən sonra Pol Karberi polisdə - xüsusən də Şotlandiyanın gənclər arasında mütəşəkkil cinayətkarlıqla mübarizə şöbəsində karyera qurub.

Keçən il o, uşaqlara və gənclərə dəstək verən "Action for Children" fondunun rəhbəri təyin edilib. Pol Karberinin həmkarları onun keçmişindən xəbərdar olsalar da, Uels şahzadəsi bundan bixəbər olub.

## Bunları bilirsinizmi?

* Döş qəfəsindən çıxarılan insan ürəyi qısa müddət döyünə bilir. Çünki onun özünün xüsusi elektrik sistemi var və ətraf mühitdən elektrik ala bilir.
* Mədə turşusu o qədər güclüdür ki, bədən hər 3-4 günə tamamilə yeni selikli qişa yaranır.
* İnsan burnu 50 min qoxunu ayırıb yadda saxlaya bilər.
* İnsan saatda 160 km sürətlə asqırır. Bəlkə də daha çox.
* Qan damarlarının ümumi uzunluğu 96 min kilometrdir. Bu da ekvator xəttini iki dəfədən artıq fırlanmağa bərabərdir.
* İnsan bədəni gündə yük maşınının 32 km məsafə qət edə biləcəyi qədər enerji istehsal edir.
* İnsan gözü o qədər həssasdır ki, aydın gecədə səmaya baxsa Andromeda görmək olar. Yəni gözlər ən bizə yaxın və 2,5 milyon işıq ili uzaqda yerləşən qalaktikada zəif rəngli ləkələri ayırd edə bilər.
* İnsan xoruldayan zaman 80 destibel gücündə səs çıxarır. 85 destibeldən yuxarı səsə insan sağlamlığı üçün təhlükəlidir.
* Heyronlar saatda 240 kilometr sürətlə siqanl ötürürlər.
* İnsanın ürək ritmləri və mimikası qulaq asdığı musiqidən asılı olaraq dəyişir.
* Yatmayanda insan beyni bir lampa üçün kifayət edəcək qədər elektrik enerjisi istehsal edə bilər.
* İnsan sümüyü poladdan möhkəmdir. Belə möhkəmliyə baxmayaraq sümüklərin 31 faizi sudan ibarətdir.
* İnsan gözü kamera kimi qiymətləndirilsə o 576 meqapiksel olar. Müqayisə üçün deyək ki, ən güclü fotoaparat olan Mamiya DSLR da bu rəqəm 80 meqapikseldir. Ən yüksək rəqəmə malik cihazın qiyməti isə 34 min dollardır.
* İnsan gözü 10 min rəngi seçə bilir.
* Əgər insan DNT-ni açmaq olsa 16 milyard km-lik zəncir yaranardı. Bu isə Yerdən Plutona və əks istiqamətdə olan məsafə qədərdir.
* İnsan yaddaşı 1 kvadrillion bit informasiya saxlaya bilər.
* İnsan ürəyi orta ömrü ərzində 1,5 milyon barel qan vurur - bu 200 dəmiryol sisternini doldurmağa yetir.
* İnsan orqazizmi saatda 180 milyon qırmızı qan hüceyrəsi yaradır.
* Normal hamiləlik 9 ay davam edir. Lakin qeydiyyata alınan ən uzunmüddətli hamiləlik 375 gün, yəni 12,5 ay davam edib.
* Hamiləlik zamanı ananın hər hansı orqanı zədələnsə, döl bu orqanın bərpası üçün kök hüceyrə ötürür.
* Bir addım atmaq üçün 200 əzələ işləməlidir.
* Göbəkdə 1458 yeni bakteriya növü aşkarlanıb.
* Kosmosda astronovtlar 5 sm daha uzun olurlar.
* Bir hüceyrədə 6 milyard DNT spiralı var.
* İnsan həyatının 1/3 yuxuda keçirir.

## Türkiyədə güclü yağış magistral yolu iki yerə böldü



**Türkiyədə qəfil başlayan güclü yağış Bilecik Söğüt-İnhisar magistral yolunu ikiyə bölüb. Ötən günlərdə bu səbəbdən qəzalı vəziyyətə düşən və müvəqqəti təmir edilən Söğüt-İnhisar avtomobil yolu ötən gün həddindən artıq yağıntı səbəbindən yenidən nəqliyyata bağlanıb. Belə ki, yağışın təsiri ilə yol ikiyə ayrılıb, böyük bir hissəsi isə çöküb.**

Bölgəyə Kənd Təsərrüfatı İdarəsi və Fövqəladə Halların İdarə Olunması Agentliyinin (AFAD) qrupları sövq ediliblər.

**Səhifəni hazırladı: SELCAN**

Redaktor:
Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri,
R.Rüstəmov küçəsi
2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Sifariş: 1411
Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.